www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 aprel 2016-cı il Cümə axşamı № 73 (6394) Qiyməti 60 qəpik

**Xəbər**

## Yazıçı Əkrəm Əylisliyə rəsmi ittiham elan olundu - xuliqanlıq...

yazısı səh.2-də

**Gündəm**

### Qərb mediası düşmən ölkəni yerə vurdu



"The Washington Times": "Qarabağda marionet rejim qurulub"; rusiyalı tanınmış hərbi ekspert isə hesab edir ki, Azərbaycanla savaşda işğalçı ölkənin məğlubiyyəti qaçılmazdır...

yazısı səh.10-da

### Rusiya Azərbaycanı dəstəkləmir - səbəb "Yeni SSRİ"dir...

yazısı səh.5-də

### Döyüşən ordumuz və ona güvənən, mərmi altındakı kəndlilər...

yazısı səh.6-da

### Ramiz Mehdiyev Azərbaycan mətbuatının müharibə mövqeyindən razı qalıb

yazısı səh.4-də

*Nazir müavini Sahib Ələkbərov:*

### "Süpürgəçi cüzi maaşdan vergi ödəyirsə, müğənni də ödəməlidir"

yazısı səh.11-də

### İsrailin Qarabağ məsələsində mövqeyi niyə çox önəmlidir?

yazısı səh.10-da

### Erməni mediası Əli Kərimliyə istinad etdi

yazısı səh.3-də

### Qarabağ ermənilərinə terrorçu rejimdən xilas çağırışı

yazısı səh.13-də

### QHT-lər prezidentə və beynəlxalq təşkilatlara müraciət etdilər

yazısı səh.3-də

### "Vur, qır səngəri, Azərbaycan əsgəri" - Şəhidlər Xiyabanında izdiham

yazısı səh.4-də

### Rostovdakı soydaşlarımız AZAL-dan kömək gözləyir

yazısı səh.11-də

## Ermənilər meyitlərini üzə çıxarır - ən azı 200 ölü!..

# ERMƏNİSTAN YASDA, AZƏRBAYCAN AYAQDA...

Düşmən öz itkilərini və məğlubiyyətini etiraf edir; **Şuşanın işğalına rəhbərlik eləmiş erməni general:** "Azərbaycan məqsədinə çatdı..."




yazısı səh.5-də

## Azərbaycan "5+2 formulu"nu gerçəkləşdirmək qərarında

Deputatdan və siyasi ekspertdən mühüm açıqlamalar

yazısı səh.3-də



### Elxan Süleymanov Obamaya Qarabağa dair müraciət ünvanladı

yazısı səh.2-də



*Sabir Rüstəmxanlı:*

### "Bu milləti sındırmaq mümkün deyil"

yazısı səh.7-də



### "Bir müddətdən sonra xaricə, ailəmin yanına gedəcəm" - Rauf Mirqədirov danışdı

yazısı səh. 8 və 9-da

**7 aprel 2016**

YENİ MÜSAVAT
N 73 (6394) 7 aprel 2016



## Prezident ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul etdi

**Prezident İlham Əliyev aprelin 6-da ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andryönü və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**

Musavat.com-un məlumatına görə, görüşdə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hadisələrlə bağlı vəziyyət müzakirə olunub.

Həmsədrlər cəbhə xəttində atəşkəs razılaşmasının əldə olunmasını alqışlayıblar. Onlar belə bir fikri diqqətə çatdırıblar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırda aparılan danışıqlar daha intensiv xarakter almalı və bu danışıqlar nəticəsində münaqişə tezliklə öz həllini tapmalıdır.

## Fəlsəfə və Hüquq İnstitutunda dava - polis müdaxilə edib

**Aprelin 6-da AMEA Fəlsəfə və Hüquq İnstitutunda qarşıdurma olub. Bu haqda musavat.com-a institutdakı mənbə məlumat verib. Məlumatda bildirilir ki, Fəlsəfə və Hüquq İnstitutunun aparıcı mütəxəssisi Xaliq Əhmədzadə ilə institutun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin müdiri Sakit Hüseynov arasında insident yaranıb. Qaynağımızın iddiasına görə, X.Əhmədzadə S.Hüseynovdan istefa ərizəsi yazmasını tələb edib. Bu zaman tərəflərin arasında qarşıdurma yaranıb və nəticədə Sakit Hüseynovun səhhəti pisləşib. Mənbə bildirir ki, bundan sonra institutun binasına təcili tibbi yardım briqadası və polis əməkdaşları gəlib. Deyilənə görə, polis Xaliq Əhmədzadənin haqqında akt tərtib edib, sənədi institutun bir neçə əməkdaşı imzalayıb.**

Mənbə bildirir ki, son aylar ikinci dəfədir ki, Fəlsəfə və Hüquq İnstitutuna polis çağırılır. Bu il Xocalı soyqırımının il dönümü ilə bağlı keçirilən tədbir zamanı da Xaliq Əhmədzadə Politologiya və siyasi sosiologiya şöbəsinin əməkdaşı Ruşan Ruşanzadə ilə dalaşıb. R.Ruşanzadə DİN 102 xidmətinə zəng edib hücuma məruz qaldığını deyib. Mənbə bildirir ki, hər iki halda X.Əhmədzadə barəsində heç bir ölçü götürülməyib.

Mənbənin bildirdiyinə görə, S.Hüseynov səhhətinə görə məzuniyyətdə olub. İşə qayıtdıqdan sonra ondan istefa ərizəsi yazmasını tələb ediblər. İnstitutdan musavat.com-a verilən məlumata görə, X.Əhmədzadənin bu davranışı qanunvericiliyə ziddir. Deyilənə görə, onun institutun əməkdaşlarından istefa ərizəsi tələb etməyə hüququ yoxdur. Mənbə deyir ki, Xaliq Əhmədzadə rəsmi şəkildə Fəlsəfə və Hüquq İnstitutunda heç bir rəhbər vəzifədə təmsil olunmur. Deyilnə görə, o, müəmmalı şəkildə direktor İlham Məmmədzadənin bir sıra səlahiyyətlərini qeyri-rəsmi olaraq mənimsəyib.

Xatırladaq ki, ötən ay tanınmış təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyev Fəlsəfə və Hüquq İnstitutunda baş verənlərlə bağlı Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının prezidenti, akademik Ramiz Mehdiyevə mətbuatda müraciət etmişdi.

## Atəşkəs razılaşmasını Nəcməddin Sadıkov Moskvada imzalayıb

**Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs əldə edilməsi barədə razılıq Ermənistan və Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəislərinin aprelin 5-də Moskvada keçirilən görüşü zamanı əldə edilib.**

APA-nın "İnterfaks"a istinadən verdiyi xəbərə görə, bunu Ermənistan müdafiə naziri Seyran Ohanyan hökumətin bu gün (dünən-red.) keçirilən iclası zamanı bildirib.

"Aprelin 5-də Moskvada iki ölkənin baş qərargah rəislərinin görüşü oldu və atəşin dayandırılması ilə bağlı razılığa gəlindi", - deyə o söyləyib.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# "Biz uşaq və qadınlarla müharibə aparmırıq"

**Nazir Zakir Həsənov:** "Böyük itkilərə məruz qalan erməni hərbçiləri və muzdlular silah-sursatlarını ataraq mövqelərindən qaçıblar"

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov aprelin 6-da Azərbaycanda səfərdə olan ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Ceyms Uorlik (ABŞ), Pyer Andryö (Fransa Respublikası) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşiklə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələrlə bağlı vəziyyətin müzakirə edildiyi görüşdə Z. Həsənov düşmən tərəfindən ölkəmizin yaşayış məntəqələrinin və mülki əhalinin atəşə məruz qalması faktlarını qarşı tərəfin diqqətinə çatdırıb: "İtkilərə və günahsız insanlar arasında ölüm hallarına görə dərin təəssüf hissi keçiririk. Biz qarşı tərəf kimi uşaq və qadınlarla müharibə aparmırıq. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrinə əsasən, eləcə də Azərbaycan xalqının sülhsevərliyini nəzərə alaraq hərbi əməliyyatları dayandırdıq. Amma elə edilmiş razılaşmaya baxmayaraq Ermənistan ordusunun bölmələri tərəfindən atəşkəs rejimi yenə də pozulmaqdadır".

Azərbaycanın heç vaxt işğal faktı ilə barışmayacağını və ərazilərin düşməndən azad edilməsi hüququnu özündə saxladığını bildirən Z. Həsənov həmsədrlərin diqqətinə çatdırıb ki, baş vermiş son hadisələrdə Silahlı Qüvvələrimizin məqsədi təmas xəttinə yaxın Azərbaycan kəndlərinin düşmən tərəfindən atəşə tutulmasının qarşısını almaq və həmin atəş nöqtələrinin məhv edilməsi olub. Azərbaycan ordusunun düşmənə qarşı həyata keçirdiyi tədbirlər ancaq müdafiənin ön xəttində olan qüvvələrimizin cəlb edilməsi ilə icra edilib.

Müdafiə naziri döyüş toqquşmasında böyük itkilərə məruz qalan erməni hərbi qulluqçularının, eləcə də müxtəlif yerlərdən cəlb edilən muzdluların silah-sursatlarını ataraq öz mövqelərindən qaçdığını bildirib.

Z. Həsənov vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri hazırda işğaldan azad edilmiş ərazilərdə möhkəmləndirmə tədbirlərini davam etdirir. Nazir bir daha qonaqların diqqətinə çatdırıb ki, münaqişənin tezliklə nizamlanmasının yeganə çıxış yolu işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasındadır.

Tərəflər arasında atəşkəs razılaşmasının əldə olunmasını alqışladıqlarını bəyan edən həmsədrlər bildiriblər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı aparılan danışıqlar daha intensiv olmalı və münaqişənin tezliklə həlli istiqamətində mühüm addımlar atılmalıdır.



## Elxan Süleymanov Obamaya müraciət ünvanladı

Aprelin 7-dən Qarabağla bağlı mühüm petisiyanın icrasına start verilir

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, millət vəkili Elxan Süleymanovun imzası ilə ABŞ prezidenti Barak Obamaya "Ədalətin bərpərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" petisiyası ilə müraciət ünvanlanıb.**

Kampaniyaya 7 aprel tarixində start verilir. Bu gün saat 12.00-da Beynəlxalq Mətbuat Mərkəzində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi ilə bağlı petisiya layihəsinin icrasına start verilməsinə dair mətbuat konfransı keçiriləcək. Həmin tədbirdə kampaniya elan ediləcək və kampaniya çərçivəsində görüləcək işlərin planı təqdim olunacaq.

❑ M.MAHRIZLI

## Cəbhədən son xəbər: ermənilər atır, ordumuz cavab vermir

**Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında hərbi əməliyyatların dayandırılmasına dair əldə edilmiş razılaşmaya baxmayaraq Ermənistan ordusunun bölmələri tərəfindən atəşkəs yenə də pozulmaqdadır.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, aprelin 6-da gün ərzində Goranboy rayonunun Tapqaraqoyunlu yaşayış məntəqəsi yaxınlığındakı mövqelərimiz 60, 82 və 120 millimetrlik minaatanlardan intensiv olaraq atəşə tutulub.

Azərbaycan tərəfi razılaşmaya əməl edərək hələ ki cavab atəşi açmır.

Ermənistan silahlı qüvvələri aprelin 6-da səhər tezdən başlayaraq Goranboyun kəndlərini minomyotlardan və artilleriya qurğularından fasiləsiz atəşə tutub. Bu barədə virtualaz.org-un bölgə müxbiri məlumat verib.

Qeyd edək ki, bu məlumat Müdafiə Nazirliyinin yaydığı rəsmi xəbərlərlə də təsdiqlənir.

"Erməni mətbuatında Azərbaycan Silahlı Qüvvələrinin nəzarəti altına keçmiş Talış kəndi ətrafındakı yüksəkliklərin guya düşmən tərəfindən yenidən zəbt edilməsi barədə yayılan xəbərlərin heç bir əsası yoxdur və yalandır".

Müdafiə Nazirliyi xəbər verir ki, bu cür məlumatların yayılması təlaş içində yaşayan erməni xalqını və mənəvi düşgünlüyə məruz qalmış, döyüş qabiliyyətini itirmiş düşmən ordusunun döyüşmək istəməyən əsgərlərini cüzi də olsa ruhlandırmaq məqsədilə Ermənistan hərbi-siyasi rəhbərliyi tərəfindən həyata keçirilən uğursuz və saxta fəaliyyətin nəticəsidir.

MN bir daha bildirir ki, Ermənistan tərəfi gün ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini pozmaqda davam edib və bu təxribatların qarşısını almaq məcburiyyətində qalan Silahlı Qüvvələrimizin cavab tədbirləri daha sərt olacaq.



## Geri alınan Lələtəpə: düşmən 700 metr geri çəkilib

**Azərbaycan Müdafiə Nazirliyinin təşkilatçılığı ilə cəbhə bölgəsinə gedən jurnalistlər qrupu Silahlı Qüvvələrimizin Füzuli rayonu istiqamətində aprelin 2-də gedən döyüşlərdə düşməndən geri aldığı Lələtəpə strateji yüksəkliyini müşahidə ediblər.**

Virtualaz.org xəbər verir ki, jurnalistlərə hazırda istehkam işlərinin getdiyi bu yüksəkliyə yaxın getməyə icazə verilməyib. Onlar yüksəkliyi ancaq uzaqdan müşahidə edə biliblər.

Müşahidələrə əsasən hazırda Azərbaycan ordusu bu yüksəklikdə möhkəmlənir, istehkam işləri görür. Və jurnalistlərə məlumat verilib ki, Lələtəpənin geri alınması nəticəsində erməni qüvvələri həmin istiqamətdə təxminən 700 metr-1 km məsafədə geri çəkilərək yeni mövqedə dayanıblar.

Yüksəkliyin geri alınması nəticəsində silahlı qüvvələrimiz həm Füzuli rayonunun bir sıra yaşayış məntəqələrinin müdafiəsini möhkəmləndirib, həm düşmənin nəzarətində olan ərazilərin dərinliklərinə doğru on kilometrlərlə məsafədə müşahidə aparmaq imkanı əldə edib.

## Yazıçı Əkrəm Əylisliyə rəsmi ittiham elan olundu - xuliqanlıq...

**Yazıçı Əkrəm Əylisliyə qarşı ittiham elan edilib. APA-nın məlumatına görə, bu barədə vəkil Elçin Sadıqov facebook-da status yazıb. Onun sözlərinə görə, artıq yazıçı Əkrəm Əylisli ilə onun hüquqlarının müdafiəsi üçün müqavilə bağlayıblar:**

"Daha sonra müstəntiqin çağırışı ilə Hava Nəqliyyatında Polis İdarəsinin istintaq bölməsinə getdik. Əkrəm Əylisli əvvəlcə şübhəli, daha sonra isə təqsirləndirilən şəxs qismində cəlb edildi və ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.1-ci maddəsi ilə ittiham elan edildi. İttihamın qısa mahiyyəti ondan ibarətdir ki, Əkrəm Əylisli 30 mart 2016-cı il tarixdə ictimai qaydanı pozub, söyüşlər söyüb, DSX-nin əməkdaşı, 15.09.1981-ci il təvəllüdlü Seyidov Nihal Azər oğlunun döş qəfəsinin sağ yarı hissəsinin yuxarı üçdə birinə zərbə vurub. Zərbə nəticəsində Seyidov Nihal Azər oğlunun döş qəfəsinin sağ yarı hissəsinin yuxarı üçdə bir hissəsində 3,0X2,5 ölçüdə solğun göyümtül qançır yaranıb.

Əkrəm Əylisli ittihamları qəbul etmədiyini, heç kəsə qarşı təhqir və fiziki zor tətbiq etmədiyini, belə hərəkətləri etməyə yaşının, fiziki durumunun və mənəvi durumunun imkan vermədiyini, cinayət işinin onun yazıçı fəaliyyəti ilə bağlı olduğunu bildirdi. İstintaq hələ davam edir".

Qeyd edək ki, Ə. Əylisli martın 30-da Heydər Əliyev Hava Limanında saxlanılıb. Daha sonra isə sərbəst buraxılıb.

## "Azərbaycan prezidentinin Almaniyaya səfəri iyunda gerçəkləşəcək"

**Azərbaycan prezidentinin Almaniyaya səfəri iyun ayında gerçəkləşəcək.**

APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, bunu Almaniya kansleri Angela Merkel Ermənistan prezidenti Serj Sarkisyanla birgə keçirdiyi brifinqdə deyib.

A. Merkel Azərbaycan prezidentinin Almaniyaya səfərinin artıq razılaşdırıldığını bildirib. "Biz onun nöqteyi-nəzərindən problemləri müzakirə edə bilərik", - deyə o vurğulayıb.

## Azərbaycan İrana yeni səfir təyin etdi

**Bünyad Səməd oğlu Hüseynov Azərbaycanın İranda fövqəladə və səlahiyyətli səfiri təyin edilib.**

APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.

**Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov “Anadolu” agentliyinə açıqlamasında deyib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri öz mandatlarından istifadə edərək Ermənistandan öz qoşunlarını Azərbaycan torpaqlarından çıxarmasını tələb etməlidir. Qalib İsrafilov Azərbaycanın şərtini də açıqlayıb.**

# Azərbaycan “5+2 formulu”nu gerçəkləşdirmək qərarında

## Deputatdan və siyasi ekspertdən mühüm açıqlamalar

O deyib ki, öncədən 5 bölgə boşalmalı, həmin bölgəyə azərbaycanlı məcburi köçkünlər qayıtmalı, onlar üçün normal şərait yaranmalı, ərazilər və nəqliyyat-kommunikasiya bərpa edilməlidir. İkinci mərhələdə digər iki region - Laçın və Kəlbəcər qayıtmalıdır və bunun əsasında Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkibində statusunun müəyyən edilməsi baş tuta bilər. Bunun üçün də Qarabağdan qovulmuş azərbaycanlı icması oraya qayıtmalı və erməni icması ilə bərabər hüquqlarla prosesdə iştirak etməli, onlar üçün həyat qurmağa eyni imkanlar yaradılmalıdır.




**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycanın irəli sürdüyü həll formulu ədalətlidir. Azərbaycan əvvəllər də bu həll formuluna razı olduğunu bəyan edirdi, lakin Ermənistan buna da razı olmayıb: “Aprelin 2-də Azərbaycan ordusunun cəbhədə irəliləməsi vəziyyətə xeyli dərəcədə təsir göstərə bilər. Ermənistan danışıqlarda öz xoşuna 5 rayonu azad etməsə, atəşkəs yaxın günlərdə yenidən pozulacaq və ordumuz bir az da irəliləyəcək. İlk mərhələdə 5 rayonun azad edilməsi artıq gündəmdədir. Cəbhədəki vəziyyəti prezident və müdafiə nazirindən yaxşı bilən yoxdur. Ona görə də əgər prezident atəşkəsə razılaşıbsa, həm cəbhədəki vəziyyətə, həm də gedən diplomatik danışıqlara görə bu qərarı verib. Bütün iplər Moskvanın əlindədir. Əgər Kreml müharibənin davamını istəmirsə, Ermənistan prezidenti Serj Sərkisyanı ilkin şərt irəli sürmədən 5 rayonu azad etməyə məcbur etməlidir. Əks halda, yəni danışıqlar yenə uzanacaqsa, bunun davamının nə olacağını artıq ermənilər yaxşıca anladılar”.

**Deputat Zahid Oruc hesab edir ki, dörd günlük müharibə və verdiyimiz şəhidlər əslində Qarabağa yeni bir yol açıb (axar.az):** “Azad edilən 2 kənd və 8 yüksəklik gələcəkdə Qarabağ prosesində mühüm bir səbəb, aralıq mərhələ, dönüş nöqtəsidir. 7 rayonun hətta beşi qaytarılsa belə, çox arzulayırıq ki, bu, müharibə yolu ilə azad olunsun. Asanlıqla qayıtsa, xalqı çaşdıracaq. Bu gün faktiki olaraq Laçın dəhlizinə bizi aparan yolun üstündə olsaq da, qazanılmış ilk uğurlar ermənilərin bir neçə istiqamətdə mühasirəsinə səbəb olacaq və onların nəfəslikləri daralacaq. Bu dəqiqdir. İndi dünya 1990-cı illər reallığından fərqlidir. Hamını düşündürən bir sual var: niyə atəşkəs oldu? Prosesin əslini və bütün sirləri bilən Ali Baş Komandandır. Prezident bugünlərdə beynəlxalq dairələrlə aparılan danışıqların əsas məğzini cəmiyyətə açmadan göstərir ki, çoxları üçün kiçik görünsə də, əldə edilən uğur Qarabağ prosesinin bütün gələcəyini dəyişəcək. Bu sirli və olduqca mühüm mesajı artıq ölkə rəhbəri verib. Azərbaycan yeni bir tarixin başlanğıcındadır”.

❑ **E.SEYİDAĞA**

# Erməni mediası Əli Kərimliyə istinad etdi

## AXCP sədrinin atəşkəsə etirazla bağlı fikirləri düşmən ölkədə maraq doğurub

**Ermənistan mətbuatının Azərbaycandakı prosesləri nə qədər ciddi şəkildə izlədiyi yerli medianın hətta sosial şəbəkələrdəki paylaşımları da xəbərə çevirməsindən bir daha aydın olur. Belə ki, Ermənistanın Armenia Today saytı AXCP sədri Əli Kərimlinin aprelin 5-də verilən atəşkəs qərarı ilə bağlı etirazından bəhs edib. Azərbaycan müxalifətindən Əliyevə: “Daha deməyin ki, lazım gəlsə, Qarabağı alarıq” sərlövhəli xəbərdə AXCP sədrinin atəşkəs razılaşmasına etirazı barədə statusuna yer ayrılıb. “Buna deyirlər odu söndürüb külü ilə oynamaq. Torpaqlarımızı işğaldan azad etmək üçün tarixi fürsəti itiririk. İndi də deyilsə, bəs nə zaman? Ordumuzun döyüş əzmi yüksək ikən, xalqımız iqtidarı və müxalifətilə, dini məzhəb və etnik mənsubiyyət ayrılığına baxmadan ordumuzun arxasında bir yumruq kimi birləşmişkən, dünyadan, dostlardan, qonşulardan, xüsusilə qardaş Türkiyədən ən yüksək səviyyədə dəstək varkən, düşmən çətin durumda və panikada ikən biz işğal altındakı torpaqlarımızı azad etməkdən imtina ediriksə, lütfən, bir daha “lazım gələrsə... “ tipli bəyanatlar verməyin, ciddi qəbul olunmayacaq”, -Ə.Kərimli yazıb.**


Armenia Today

Регион | Новости по разделам | Об Агентстве

16:50:21 ● 6 апреля 2016

Вернуться ко всем новостям раздела

**Азербайджанский оппозиционер Алиеву: Больше не говорите о том, что, если надо будет, Карабах возьмем**

Armenia Today [ 06.04.2016 | 14:56 ] Политика , Азербайджан

Больше не говорите о том, что, если надо будет, Карабах возьмем. Такую запись на своей странице в «Facebook» сделал лидер партии Народный фронт Азербайджана Али Керимли, напомнив Ильхаму Алиеву его высокомерные угрозы о том, что «если надо будет, они возьмут Карабах». Об этом сообщает azadliq.info.

«А почему не смогли взять? Если вы говорите о высокой боеготовности армии, единстве общества, независимо от религиозной и этнической принадлежности, поддержке со стороны мирового сообщества, соседей, особенно Турции, сложном положении и паники у противника, то почему не смогли выполнить это ваше «если будет нужно»? Прошу вас больше не говорите фразы в духе «надо будет…», это не будет восприниматься всерьез», - отметил Керимли.

© При полном или частичном использовании материала ссылка (в интернете - гиперссылка) на ARMENIA Today обязательна, даже если мы ссылаемся на другие источники. Мнение ARMENIA Today может не совпадать с мнением авторов отдельных материалов. ARMENIA Today не несет ответственности за содержание рекламы.

Ссылки по теме

- На эту тему материалов нет

Вернуться ко всем новостям раздела

Французы рассказали всему миру, кто мог подбить ...

Карабахская ловушка: Как Эрдоган хотел обмануть ...

Путин "РАСКУСИЛ" карабахскую ловушку, развалив ...

Qeyd edək ki, savaş başlayandan sonra AXCP sədri “Bu gərgin məqamlarda bütün varlığımızla ordumuzun yanında olduğumuzu bəyan edirəm” - bəyanatını vermişdi. Ermənistan mediasının müxalifətçi partiyanın sədrinin statusunu yaymasından sonra isə AXCP sədri feysbuk səhifəsində aşağıdakı fikirlərini paylaşıb. “Dostlar, lütfən millətimizi aşağılamayaq. Nədən narazısınız, nəyi düz etmədi millətimiz? Hücuma məruz qaldı, qorxub qaçmadı, əsgər və zabitləri igidliklə döyüşdü, millət də həmin övladlarını bağrına basdı. Səhvmi etdi? Savaşda verdiyi şəhidlərini böyük sevgi və sayğı ilə qucaqladı, şəhid ailələrinin acısını paylaşdı, amma itkilərdən sınmadı, yazıq duruma düşmədi. Səhvmi etdi xalqımız? Boynunu büküb, matəmə qapılsaydı, daha yaxşımı olacaqdı? Xarici düşmənin hücumu qarşısında iqtidarlı, müxalifətli, qadınlı, kişili, cavanlı, qocalı, dindarlı, ateistli heç bir ayrımçılıq etmədən bir yumruq kimi birləşdi, bütün dünyaya cəsarətini, mübarizə əzmini nümayiş etdirdi. Səhvmi etdi? Niyə Parisdəki terrordan sonra fransızlar, Nyu-Yorkdakı 11 sentyabr terrorundan sonra amerikalılar eyni hərəkəti edəndə, bu, həmin xalqların gücü, mübarizə əzmi kimi, eyni davranışı biz sərgiləyəndə isə küyə getmək kimi qiymətləndirilməlidir? İndi hərəmiz bir tərəfdən 3 günlük müharibə zamanı millətimizin səhv etdiyini sübut etməyə girişmək əvəzinə, yaxşı olmazmı ki, millətimizdə yaranmış bu özgüvəni, özünəhörməti onun köklü problemlərinin həlli üçün istifadə etməyə çalışaq?”

❑ **Musavat.com**

# QHT-lər prezidentə və beynəlxalq təşkilatlara müraciət etdilər

## Azay Quliyev: “Ordumuzun düşmənə verdiyi layiqli cavab onların Dağlıq Qarabağı Azərbaycandan birdəfəlik qoparmaq illüziyalarına son qoydu”





**Aprelin 6-da Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası cəbhədəki son vəziyyətlə əlaqədar olaraq QHT-lərin geniş toplantısını keçirib. Tədbir açıq elan olunduqdan sonra qoşunların təmas xəttində son günlər baş verən döyüşlərdə həlak olan əsgər və zabitlərimiz də daxil olmaqla, Qarabağ şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib.**

**Milli QHT Forumunun prezidenti Rauf Zeyni** Azərbaycan ordusunun 2 apreldə növbəti dəfə atəşkəsi pozan Ermənistan silahlı qüvvələrinin hücumunu qəhrəmanlıqla aldığını və bir neçə yaşayış məntəqəsini düşməndən azad etdiyini deyib. R. Zeyni ölkə QHT-lərinin Ali Baş Komandan və xalqımızla birgə olduğunu və Ermənistanın təcavüzkar siyasətini pislədiyini bildirib.

**Şura sədri, millət vəkili Azay Quliyev** cəbhədə baş verən son hadisələrin Azərbaycan ordusunun qüdrətini və xalq-dövlət birliyinin sarsılmazlığının ən yüksək səviyyəsini bir daha nümayiş etdirdiyini vurğulayıb: “Milli Ordumuzun həyata keçirdiyi uğurlu əks həmlələr nəticəsində Ermənistanın cinayətkar rəhbərliyi tam anladı ki, onların yeritdiyi işğalçılıq siyasətinin heç bir perspektivi yoxdur. Silahlı Qüvvələrimiz işğalçı hərbi birləşmələrə verdiyi layiqli cavabla onların Dağlıq Qarabağı Azərbaycandan birdəfəlik qoparmaq illüziyalarına son qoydu”.

QHT-lərin üzərinə mühüm tarixi missiya düşdüyünü deyən Azay Quliyev iclasda qəbul ediləcək müraciətlərin Azərbaycanın ictimaia sektorunun iradəsini ifadə etdiyini deyib. Şura sədri bütün QHT-ləri imkanlarını səfərbər edərək erməni diasporunun apardığı böhtan və iftira kampaniyasına layiqli cavab verməyə və Azərbaycanın mövqeyinin olduğu kimi dünyada təbliğini davam etdirməyə çağırıb.

Toplantıda prezident, Ali Baş Komandan İlham Əliyevə, beynəlxalq təşkilatlara, ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlərin başçılarına müraciətlər qəbul olunub.

**Prezident İlham Əliyevə ünvanlanan müraciətdə Ermənistanın təxribatçı hücumlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin apardığı uğurlu əməliyyatların cəmiyyətdə yüksək əhval-ruhiyyə yaratdığı qeyd olunur və peşəkar ordunun formalaşması və atılan qətiyyətli addımlara görə ölkə prezidentinə təşəkkür edilir:** “...Bu çətin və məsuliyyətli günlərdə Azərbaycan xalqının öz ordusu və Ali Baş Komandanı ilə birlikdə olduğunu bütün dünya gördü. Sizi bir daha əmin edirik ki, siyasi baxışlarımızdan və hökumətin fəaliyyətinə fərqli yanaşmalarımızdan asılı olmayaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası və milli maraqlarımızın təminatı istiqamətində həyata keçirdiyiniz bütün işlərdə Sizinləyik və hər bir addımınızı dəstəkləməyə hazırıq. Ali Baş Komandan olaraq nümayiş etdirdiyiniz qətiyyətə, yaratdığınız güclü və peşəkar orduya görə bir daha Sizə, göstərdikləri igidliyə və şücaətə görə Milli Ordumuzun əsgər və zabit heyətinə dərin minnətdarlığımızı bildirir, torpaqlarımızın müdafiəsi və azadlığı uğrunda qəhrəmanlıqla həlak olan bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik”.

BMT baş katibi, ATƏT sədri, ATƏT Parlament Assambleyasının sədrinə, NATO baş katibinə, AŞ PA prezidentinə, Avropa Parlamentinin sədrinə, Minsk Qrupunun həmsədri olan ölkələrin prezidentlərinə ünvanlanan müraciətdə 20 ildən artıq müddətdə Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistana qarşı təsirli addımlar atılmasına çağırış edilib: “...Yalnız bundan sonra regiona həqiqi sülh gələ bilər”.

Sonda yaxın günlərdə QHT-lərin cəbhə bölgəsinə səfər etməsi və regiondakı QHT-lərin iştirakı ilə geniş müşavirə keçirilməsi haqqında qərar qəbul edilib.

Müraciətə 700-dən artıq QHT qoşulub.

YENİ MÜSAVAT
N 73 (6394) 7 aprel 2016



## Şəhidlərimiz torpağa tapşırılır

"Vur, qır səngəri, Azərbaycan əsgəri" - Şəhidlər Xiyabanında izdiham



**Ermənilərlə döyüşdə şəhid olan əsgər, 1997-ci il təvəllüdlü Əlizaman Fərrux oğlu İslamov aprelin 6-da doğulduğu Lənkəran rayonunun Cilkənd kəndində torpağa tapşırılıb.(APA)**

Dəfn mərasimində Lənkəran Şəhər İcra Hakimiyyətinin, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edib. Şəhidin tabutuna çəkilən Azərbaycan bayrağı dayısına təqdim olunub.

Yaylım atəşi açılıb, şəhid əsgər torpağa tapşırılıb.

Düşmənlə döyüş zamanı şəhid olan polkovnik Vüqar Yusifov isə doğulduğu Şəmkir rayonunun Şiştəpə kəndində torpağa tapşırılıb.

40 yaşlı polkovnik Vüqar Yusifovun dəfn mərasiminə toplaşanlar zabitin keçdiyi ömür yolundan, orduya bağlılığından söz açıblar.

Mərasimdə tabuta çəkilən Azərbaycan bayrağı şəhidin atasına təqdim olunub. Daha sonra dövlət himninin sədaları altında yaylım atəşi açılıb və şəhid zabitimiz torpağa tapşırılıb.



Vüqar Yusifov 3 uşaq atası olub.

Şəhid olan zabit, 1992-ci il təvəllüdlü Şirinov Sahil Həsrət oğlu aprelin 6-da doğulduğu Qəbələ rayonunda dəfn edilib.

Şəhid Sahil Şirinov Qəbələ rayonunun Bum qəsəbəsindəki məzarlıqda torpağa tapşırılıb, şəhidin ruhuna dualar oxunub.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşləri altında son mənzilə yola salınıb. Şəhidin tabutuna bükülmüş Azərbaycan bayrağı atasına təqdim edilib.

Qeyd edək ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu, şəhid leytenant Sahil Şirinov Heydər Əliyev adına Ali Hərbi Məktəbin məzunu olub.

S.Şirinov nişanlı olub, toy mərasiminə hazırlaşırmış.

***

Aprelin 6-da Bakıda izdihamlı anım yürüşü keçirilib. Minlərlə insan şəhidlərimizin xatirəsini yad etmək üçün bir araya toplaşıblar. Şəhidlər Xiyabanına axın edənlər şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edərək, əsgərlərə dəstək şüarları səsləndiriblər.

Musavat.com-un məlumatına görə, yürüşün keçirilməsi üçün bir neçə gün əvvəl facebookda "event" yaradılıb. "Event" Milliyyətçi Gənclər Təşkilatı tərəfindən yaradılıb və hər kəsin bu yürüşdə iştirak etməsi üçün çağırışlar edilib. "Gün Milli Birlik günüdür" adı ilə başladılan yürüşə qatılanların sayı təxminən 4 min nəfərə yaxın olub.

"Elmlər Akademiyası" metro stansiyasından Şəhidlər Xiyabanına piyada hərəkət edən gənclər xiyabanın qarşısında bir araya toplaşıblar. Anım yürüşünə tələbələr, yaşlılar və uşaqlar da qatılıb. Yoldan keçən insanlar da yürüş iştirakçılarına dəstəklərini bildirərək onlara qoşulub.

Əvvəlcə şəhidlər Xiyabanındakı şəhidlərin, aprel ayının əvvəlindən cəbhədə baş verən hadisələrdə şəhid olan hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Şəhidlər Xiyabanındakı "Əbədi məşəl"in qarşısında toplaşan insanlar dövlət himnini səsləndiriblər.

"Qarabağ bizimdir, bizim olacaq", "Ən böyük əsgər bizim əsgər", "Vur, qır səngəri, Azərbaycan əsgəri", "Şəhidlər ölməz, vətən bölünməz" şüarları səsləndirən yürüş iştirakçıları daha sonra Şəhidlər Xiyabanından "Elmlər Akademiyası" metro stansiyasının qarşısına qədər aksiyanı davam etdiriblər.

Aksiya keçirilən ərazidə avtomobil yolunda bir müddət hərəkət məhdudlaşıb. Aksiya polis əməkdaşlarının nəzarəti ilə həyata keçirilib.

"Elmlər Akademiyası"nın qarşısında aksiya iştirakçıları dağılışıblar. Yürüş zamanı heç bir insident baş verməyib.

❑ **İ.MURADOV**

# Ramiz Mehdiyev Azərbaycan mətbuatının müharibə mövqeyindən razı qalıb

## "Jurnalistlərimiz cəbhə bölgəsində gərginliyə olduqca həssas, peşəkarcasına yanaşdılar, dezinformasiyaya uymadılar"

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev AzərTAc-a müsahibəsində Qarabağ cəbhəsində baş verən son hadisələrdən bəhs edib.**

Cəbhə xəttində vəziyyətin kəskin gərginləşməsinin səbəblərindən danışan administrasiya rəhbəri bildirib ki, Azərbaycan Silahlı Qüvvələri düşmən həmlələrinin qarşısını alaraq əks-zərbələrlə onu geri çəkilməyə məcbur edib, bir neçə strateji yüksəkliyə nəzarəti ələ keçirib: "Ermənistan silahlı qüvvələri çoxsaylı insan və texnika itkisinə məruz qalmışdır. Beləliklə, həm erməni təxribatının qarşısı alınmış, həm də təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmlənmiş, düşmən və havadarları ordumuzun gücünü və döyüş əzmini reallıqda hiss etmişlər. Cənab prezident Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkən zaman bildirmişdir ki, Azərbaycan ordusu öz ərazisində döyüşür, doğma torpaqlarını qoruyur. Silahlı Qüvvələrimiz düşmənə layiqli cavab verib və onu geri çəkilməyə məcbur edib. Azərbaycan əsgəri işğalçı erməni ordusu ilə müharibə aparır və düşməndən fərqli olaraq, biz heç zaman dinc əhaliyə qarşı vuruşmuruq. Təmas xəttində yaranmış vəziyyət onu göstərir ki, doğurdan da Azərbaycan əsgəri qəhrəmandır".

Xatırladaq ki, 2014-cü ilin yayında cəbhədə gərgin döyüşlər gedəndən sonra Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi keçirilmişdi, mətbuata iradlar bildirilmişdi.

**Lakin cənab Mehdiyev bu dəfə Azərbaycan mətbuatının Qarabağ cəbhəsində gedən döyüşlərə münasibətindən, baş verənləri işıqlandırmasından razı qalıb. PA rəhbəri xatırladıb ki, 2014-cü ilin avqustunda cəbhədə gərginliyin yaranması ilə əlaqədar Azərbaycan KİV-lərində, xüsusilə də internet media və sosial şəbəkələrdə çox ziyanlı süni ajiotaj müşahidə edildi:** "Buna görə də avqustun 29-da Prezident Administrasiyası rəhbərinin sədrliyi ilə dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələri və kütləvi informasiya vasitələrinin rəhbərləri ilə geniş müşavirə keçirildi, mövcud vəziyyət dərindən təhlil olundu, KİV-lərə və mətbuat xidmətlərinə müvafiq tövsiyələr verildi".

**R.Mehdiyevin sözlərinə görə, bütün bu tədbirlər təsirsiz qala bilməzdi:** "Son hadisələr də göstərdi ki, kütləvi informasiya vasitələrimiz, jurnalistlərimiz cəbhə bölgəsində gərginliyə olduqca həssas, peşəkarcasına yanaşdılar, dezinformasiyaya uymadılar. Ümumilikdə, ölkənin vətəndaş cəmiyyəti institutları, tanınmış ictimaiyyət nümayəndələri, ziyalılarımız, gənclərimiz əsl vətənpərvərlik nümunəsi və vətəndaş mövqeyi nümayiş etdirdilər. Hesab edirəm ki, müşahidə olunan milli həmrəylik bizim böyük nailiyyətimiz və gələcək uğurlarımız üçün vacib amildir".

**Eyni zamanda PA rəsmisi deyib ki, bəzi hallar hələ də narahatlıq üçün əsas yaradır:** "Sirr deyil ki, Azərbaycanı sevməyən dairələr, xüsusilə ermənilər bütün mümkün vasitələrdən istifadə etməklə cəmiyyətimizi və beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Təəssüf ki, bəzi hallarda ayrı-ayrı vətəndaşlarımız da bu neqativ halın təsiri altına düşür, xüsusilə sosial şəbəkələrdə ermənilərin yaydığı dezinformasiyaları paylaşır, ola bilər ki, istəmədən düşmənin qurduğu məkrli oyunun iştirakçısına çevrilirlər". **Administrasiya rəhbəri deyib ki, Ermənistan hakimiyyəti ölkədə narazılığın artacağını, daxili vəziyyətin daha da gərginləşəcəyini bildiyi üçün Ermənistan ordusunun cəbhədə itkilərinin miqyası barədə obyektiv informasiya verməkdən çəkinir, erməni lobbisinin, öz təsiri altında olan satqın "ekspertlərin", "politoloqların", KİV-lərin imkanlarından istifadə etməyə çalışır:** "Onlar beynəlxalq auditoriyaya "müstəqil DQR"-n Azərbaycan dövlətinə qarşı "vuruşduğu"nu, məhz Azərbaycanla qondarma "DQR"-in qarşı-qarşıya dayandığını təlqin etmək istəyir və Ermənistanı hədəfdən yayındırmağa səy göstərirlər. Bəzi ölkələrin KİV-lərinin təqdimatında bu tendensiya açıq-aydın görünür. Dövlət orqanlarının, diaspor təşkilatlarımızın, kütləvi informasiya vasitələrinin, sosial şəbəkə fəallarının, ümumilikdə bütün cəmiyyətimizin əsas vəzifələrindən biri də bu həqiqətləri dünyaya çatdırmaq olmalıdır. İndi bütün cəmiyyətimiz üçün olduqca həssas dönəmdir. Buna görə də sosial statusundan, vəzifəsindən asılı olmayaraq hər bir vətəndaş dövlət və cəmiyyət qarşısında öz borcunu layiqincə yerinə yetirməli, daha vətənpərvər olmalı və ümumi işə öz dəyərli töhfəsini əsirgəməməlidir. Azərbaycanın mövqeyi, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlər dünya ictimaiyyətinə qərəzsiz təqdim edilməlidir. Ermənilərin həm cəbhədəki, həm də informasiya məkanındakı təxribatına lazımi cavab verilməlidir.

Kimsə gözləməməlidir ki, ona hansısa tapşırıq verilsin. Dünyanın nüfuzlu media orqanları atəşkəsin ermənilər tərəfindən pozulduğunu, Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, beynəlxalq hüququn bizim tərəfimizdə olduğunu etiraf edirlər".



**Azər Ayxan: "Dövlətinin müharibə şəraitində mediadan gözləntiləri təbiidir - bəzən bir informasiya bir bombanın təsirindən artıq olur"**

**R.Mehdiyevin fikirlərinə münasibət bildirən "Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini Azər Ayxan deyib ki, Azərbaycan mediası aprelin 2-dən başlayaraq cəbhədə baş verən gərginliklə bağlı çox ciddi çalışıb:** "Müharibə təkcə səngərlərdə, döyüş bölgəsində getmir, həm də informasiya sahəsində gedir. Bu baxımdan, şübhəsiz ki, müharibə aparan ölkənin mediasının üzərinə ciddi məsuliyyət düşür. Bir ehtiyatsız xəbər, yanlış yazı ölkəyə ciddi ziyan vurar, hərbi əməliyyatların gedişinə mənfi təsir göstərər. Bu baxımdan, mən hörmətli Ramiz Mehdiyevin mövqeyi ilə razıyam. Onun bu məsələyə belə həssas yanaşması başa düşüləndi. Müasir medianın rolu, təsiri istənilən bombanın, artilleriya mərmisinin gücündən, təsirindən çox-çox artıqdır. Azərbaycan dövlətinin müharibə şəraitində mediadan gözləntiləri də təbiidir. 2014-ün avqust ayındakı 3 günlük müharibə zamanı dezinformasiya ölkəni başına götürmüşdü. İlk baxışda o dezinformasiyalarda Azərbaycanın ziyanına bir şey yox idi: bütün xəbərlərdə bildirilirdi ki, ordumuz işğal altındakı xeyli ərazini düşməndən təmizləyib. Fəqət bu informasiyalar nə qədər pozitiv olsa da, enində-sonunda yalan idi. "Şirin yalandansa, acı gerçəklik yaxşıdı" məsəli bu cür situasiyalarda tam yerinə düşür. Dövlətin həmin vaxt media ilə teması, Ramiz Mehdiyevin rəhbərliyi ilə keçirilən məlum toplantı təxminən 2 il sonra öz effektini verdi. Aprelin 2-dən başlayaraq davam edən atəşkəsin pozulması zamanı Azərbaycan mediası öz üzərində bir məsuliyyət hiss etdi, dezinformasiyaları demək olar yaymadı, şişirdilmiş xəbərləri yaxına buraxmadı. Bunun nəticəsində cəmiyyət yalan informasiyalarla aldadılmadı, hamı gerçəkliyi bildi, anladı və buna görə davrandı".

**A.Ayxan bildirib ki, Müdafiə Nazirliyi və qurumun mətbuat xidməti bu proseslərdə çox peşəkar və çevik işlədi:** "Müdafiə naziri Zakir Həsənovun fəaliyyəti, davranışları, öz ölkəsinin, həmçinin düşmən ölkənin ordusuna, cəmiyyətinə yönəlik mesajları mükəmməl oldu. Cənab Həsənov əsl müharibə generalıdı. Onun Silahlı Qüvvələrə verdiyi "Xankəndini vurmağa hazır olun" tapşırığı təkcə Azərbaycan cəmiyyətində ruh yüksəkliyi yaratmadı, həm də düşmən ölkənin, Ermənistan əhalisinin vahiməyə düşməsinə, panika yaşamasına səbəb oldu. Müharibədə psixoloji üstünlük əldə etmək çox vacibdir. Bunu təmin etmədən, ordunun irəliləməsinə, hansısa yüksəkliyi, kəndi, məntəqəni düşməndən təmizləməsinə nail olmaq mümkün olmaz".

**Azər Ayxanın sözlərinə görə, prezident və Ali Baş Komandan İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışı, jestləri də Azərbaycan xalqında ruh yüksəkliyi yaratdı:** "Prezidentin ABŞ-dan ölkəsinə dönən kimi TŞ-nin iclasını çağırması, orda ciddi bəyanatlar verməsi, düşmənə güzəştsiz mövqe sərgiləməsi cəmiyyətimizi dirçəltdi. Fikir verin, xeyli itkimiz oldu, amma xalq yeddidən yetmişə ayaqdadı. Şəhidlərin dəfn mərasimlərini izlədikcə insan öz xalqı ilə qürur duyur. Siyasi mənsubiyyətindən, peşəsindən, sosial statusundan asılı olmayaraq hər kəs vahid mövqedədir bu gün. Azərbaycanlılar 28 il öncə olduğu kimi yenə də Qarabağın adı ətrafında birləşib. Bu birliyin yaranması qədər qorunub saxlanması da vacibdi. Müharibə hələ davam edəcək. Bizə bu birlik, birgəlik hələ çox lazım olacaq".

❑ **Elşad PAŞASOY**

## Ermənilər meyitlərini üzə çıxarır - ən azı 200 ölü!..

# Ermənistan yasda, Azərbaycan ayaqda...

### Düşmən öz itkilərini və məğlubiyyətini etiraf edir; Şuşanın işğalına rəhbərlik eləmiş erməni general: "Azərbaycan məqsədinə çatdı..."

**Dağlıq Qarabağ cəbhəsində yenidən atəşkəsin bərqərar edilməsi Azərbaycan toplumunda yaxşı mənada etiraz doğurub. İnsanlar ordumuz hücumda ikən, 22 ildə ilk dəfə işğalçını ağır itkilərə məruz qoyarkən əməliyyatların dayandırılmasını və düşmənə "taym-aut" verilməsini qəbul edə bilmir.**



Ancaq əlbəttə ki, atəşkəslə bağlı geniş ictimaiyyətin bilmədiyi məqamlar var ki, bu da yəqin ki, yalnız Ali Baş Komandan İlham Əliyev və müdafiə naziri Zakir Həsənova bəllidir. Təbii ki, onlar da torpaqlarımızın tezliklə azad olunmasında maraqlıdırlar.

Bir şeyi dəqiqliklə yazmaq olar ki, Silahlı Qüvvələrimizin blits-uğuru Güneyli-Quzeyli Azərbaycan toplumunda, xaricdə yaşayan soydaşlarımızda böyük ruh yüksəkliyi və görünməmiş yekdillik yaradıb, xalqın qəti qələbəyə inamını birə-on gücləndirib, onda "məğlubiyyət sindromunu" faktiki, aradan qaldırıb.

Bunu şəhidlərimizin izdihamlı dəfn mərasimləri, dünən paytaxtda, Şəhidlər Xiyabanında keçirilən Qarabağ aksiyaları, Avropa ölkələrində, qardaş Türkiyədə Ermənistan əleyhinə keçirilən nümayişlər bir daha sübut edir. Bakıda yaşayış binalarının dövlət bayraqları ilə bəzədilməsi hərbi qələbəni dadmış millətin ovqatına və qələbə əzminə dəlalət edən başqa bir detal sayıla bilər. Bir sözlə, atəşkəs olsa da Azərbaycan iki gün öncəki kimi, yenə də ayaqdadır.

***

Ermənistanda isə tam əks ab-hava hökm sürür. Düşmən ölkə yasdadır, ordumuzun qəfil və sarsıdıcı zərbəsindən özünə hələ də gəlməyib. Çünki rəsmi təbliğata rəğmən, erməni xalqı gerçək itkilərini artıq bilir və yəqin ki, çox yaxın zamanda hakimiyyətdəki "Qarabağ klanı"ndan hesab soracaq - həmçinin də 29 itkin düşmüş (daha doğrusu, öldürülmüş) erməni hərbçisinə görə.

Bu arada Azərbaycan tərəfi də düşmənin itkiləri haqda rəsmi məlumat yayıb. "Qarabağdakı qarşıdurmalar zamanı erməni tərəfinin itkiləri 200 nəfəri, yaralıları isə 500 nəfəri keçir". Bu sözləri **Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri polkovnik Vaqif Dərgahlı** söyləyib.

**Onun sözlərinə görə, ermənilər artıq öz itkilərini elan etməyə başlayıblar:** "Əgər dünən erməni tərəfi 29 nəfərin ölümündən danışırdısa, indi bu rəqəmi 50-yə qaldırıblar. Həmçinin etiraf edirlər ki, itkin düşən 26 nəfər də məhv edilib. Əslində isə ermənilərin itkiləri həddən artıq çoxdur. Təkcə öldürülən erməni əsgər və zabitlərinin sayı 200-dən çoxdur". Əlavə edək ki, dünən Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatına görə, daha iki erməni hərbçisi Kəlbəcərdə öldürülüb.

**Öz növbəsində separatçı rejimin Rusiyadakı "daimi nümayəndəliyi"nin məsləhətçisi Arsen Məlik-Şahnazarov döyüşlərdə Ermənistan tərəfinin onlarla canlı qüvvəsinin məhv edildiyini etiraf edib:** "Texnika cəhətdən də böyük itkilərimiz oldu - 14 tank itirmişik. 4 gün ərzində 50 nəfər həyatını itirib, həmçinin 20-30 nəfərdən xəbər yoxdur". Bundan başqa o etiraf edib ki, Azərbaycan tərəfi bəzi mövqeləri geri alıb: "Cənub istiqamətində 3 yüksəklik onların nəzarətində qalıb. İranla sərhəddə 300-400 kvadrat kilometr ərazini əhatə edən bu 3 yüksəklik kifayət qədər vacib yüksəklikdir".

***

**Diqqətçəkici mühüm nüanslardan biri də odur ki, Ermənistanın son hərbi uğursuzluğu işğalçı ölkənin generaliteti səviyyəsində də etiraf olunmağa başlayıb. "Azərbaycan məqsədinə nail oldu". Bu sözləri erməni generalı, Şuşanın işğalına rəhbərlik eləmiş "Kommandos" ləqəbli Arkadi Ter-Tadevosyan erməni radiosuna verdiyi müsahibədə son hərbi qarşıdurmanı şərh edərkən söyləyib. Ter-Tadevosyan həmçinin yerli KİV-ləri cəbhədəki hadisələri düzgün işıqlandırmamaqda ittiham edib.**

"Fikrimcə, yerli KİV-lər hadisələri doğru işıqlandırmır. Onlar deyir ki, bu, Azərbaycanın Ermənistana qarşı genişmiqyaslı aqressiyasıdır. Rəsmi şəxslər və Müdafiə Nazirliyinin rəsmilərinin bu barədə açıqlamaları həqiqəti əks etdirmir", vurğulayan general Azərbaycanın qarşısına tamamilə fərqli məqsədlər qoyduğunu deyib: "Azərbaycanın əsas məqsədi bizim qoşunların və texnikamızın harada olduğunu öyrənmək idi. Hesab edirəm ki, Azərbaycan öz istəyinə nail oldu. Cəbhə xəttində baş verən hadisələr döyüşlə yanaşı, kəşfiyyat xarakterli əməliyyat idi. Azərbaycanın əsasən hədəfi bu məlumatları təhlil etmək və növbəti addımı atmaqdır. Biz onlara nə ilə cavab verdik? Gözlənilməzlik faktoru olduğundan biz bir neçə mövqe itirdik" - Ter-Tadevosyan qeyd edib.

**"Azərbaycanın öz hədəfinə nail olubmu" sualına general bir daha "bəli", - deyə cavab verib:** "Bəli, Azərbaycan öz istəyinə nail oldu. Bir daha təkrar edirəm: cəbhədə yaşananlar kəşfiyyat xarakterli idi". Generalın fikrincə, Azərbaycan Qarabağ uğrunda gedən son döyüşlərdə müharibə qanunlarına riayət edərək qələbə qazanıb: "Hesab edirəm ki, Azərbaycan genişmiqyaslı hücum qərarı verəcəyi təqdirdə faktiki olaraq başladığı işi davam etdirə biləcək".

***

Qarabağ konflikti zonasında hərbi xarakterli dəyişikliklər, belə görünür, ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyinə də təsirsiz ötüşməyib. Belə ki, amerikalı həmsədr dünən Bakıda daha çox Azərbaycanın mövqeyindən çıxış edərək, işğal altındakı ərazilərdən hərbi qüvvələrin tezliklə çıxarılmasının vacibliyini bildirib.

**Onun sözlərinə görə, hərtərəfli həllə orduların işğal olunmuş ərazilərdən çıxarılması, torpaqların Azərbaycana qaytarılması daxildir. Diplomat Minsk Qrupu ilə bağlı Azərbaycan xalqının məyusluğunun başadüşülən olduğunu da vurğulayıb:** "Azərbaycan xalqı 20 ildən çox davam edən münaqişə ilə üz-üzədir. Amma Ermənistanda da bu məyusluq var. Həll yolu müharibə deyil. Bilirəm, asan deyil, amma yeganə həll yolu sülhdür".

❑ **Analitik xidmət**

# Rusiya Azərbaycanı dəstəkləmir - səbəb "Yeni SSRİ"dir...

### **Politoloq:** "Moskva Azərbaycanı Avrasiya İqtisadi Birliyinə qoşmaq istəyir"



**Şahin Cəfərli**

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyanın Dağlıq Qarabağ məsələsində tərəf olduğunu bildirib. Türkiyə prezidenti bunu Ankarada 23-cü muxtarlar (yerli idarəçilər) toplantısında çıxışında deyib. Ərdoğan Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin tərəfi olduğuna, Azərbaycanı müharibəyə təhrik etdiyinə dair Rusiyada səslənən ittihamlara da cavab verib. "Əgər Azərbaycan və Ermənistan arasındakı münaqişədə tərəf aranacaqsa, ən önəmli tərəf Rusiyadır. Rusiya tərəf olmağı sevir" deyə, Türkiyə prezidenti bildirib.**

Rusiya-Türkiyə münasibətlərindəki gərginliklər fonunda Kremlin Qarabağ siyasəti ilə bağlı həqiqətlərin Ankara tərəfindən dilə gətirilməsi yeni bir situasiyadır. Lakin Azərbaycan ictimai rəyi artıq şimal qonşumuzun Ermənistanın tərəfini tutmasını yenilik kimi qəbul etmir. Çünki söhbət əsrlərlə davam edən siyasətdən gedir və Azərbaycan tarix boyu Rusiyadan zərbələr alıb, bununla bağlı faktları sadalamaqla bitən deyil. Məsələ burasındadır ki, Azərbaycan xalqı daim Rusiyaya normal münasibət bəsləyib. Dövlətçilik tariximizdə də Azərbaycanın Rusiya ilə hər hansı ədavəti olmayıb. Lakin bir qayda olaraq Moskva Azərbaycana qarşı təhdidlərini davam etdirib, onun ərazilərində qondarma erməni dövləti yaradıb, üstəlik, separatçılığa dəstək verib. İşğalçı Ermənistanın silahla təchizatı da məhz Rusiya tərəfindən həyata keçirilir, artıq bu faktlar bütün dünyaya məlumdur. Rusiya Azərbaycanı gah "soyuq müharibə", gah da Qarabağ müharibəsi ilə təhdid edir. Elə son qarşıdurmanın da tətikçisinin Kreml olması barədə ciddi rəylər var. Atəşkəs razılaşmasının məhz Rusiyanın işə qarışmasından sonra, özü də Moskvada əldə olunması da deyilənləri təsdiqləyir. Rusiya indiki məqamda Azərbaycandan nə istəyir? Axı Bakı hətta beynəlxalq təzyiqlər qaldığı halda Qərbin Rusiyaya qarşı sanksiyalarında yer almadı, hətta şimal qonşumuzu kənd təsərrüfatı məhsulları ilə təchiz etdi, üstəlik, beynəlxalq qurumlarla Moskva əleyhinə qəbul olunan sənədlərə səs vermədi. Bunun qarşılığında Kremlin bizə qənim kəsilməsinin sirri nədir? Moskva forpostu Ermənistanı himayə etməsinin fonunda ən azı Azərbaycana loyal münasibətdə olmalıdır. Lakin biz bunun əksini görməkdəyik, Kremlin siyasətində daha çox aqressiya müşahidə olunur. Səbəbləri barədə isə müxtəlif təxminlər var.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın Cənubi Qafqaz siyasətində balansı qorumasını gözləmək əbəsdir:** "Çox bəsit səbəbə görə: Ermənistan bölgəmizdə Rusiya maraqlarının dayaq məntəqəsidir. Bu ölkədə Rusiyanın iki hərbi bazası - Gümrü və Erebuni var. Ermənistanın Türkiyə və İranla sərhədlərini rus əsgərləri qoruyur. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Rusiyanın müttəfiqidir və Avrasiya İqtisadi Birliyi çərçivəsində Rusiya ilə vahid iqtisadi məkana daxildir. Ermənistanın əsas sənaye müəssisələri Rusiya şirkətlərinin nəzarətindədir. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan bu gün faktiki olaraq Rusiyanın anklavına çevrilib, Rusiyanın bir uzantısıdır. Mən hazırkı Ermənistan hakimiyyətinin Rusiyanın, məsələn, Tatarıstan kimi federasiya subyektindən daha müstəqil olduğuna inanmıram. Hətta Tatarıstan hökuməti bəlkə daha müstəqildir".

**Ş.Cəfərlinin fikrincə, Azərbaycan-Rusiya münasibətlərinin xarakteri tam fərqlidir:** "Azərbaycan mümkün olduğu qədər, regional geosiyasi durumun imkan verdiyi ölçüdə müstəqil siyasət yeritməyə çalışır. Azərbaycan Rusiyanın heç bir inteqrasiya layihəsində iştirak etmir. Ərazimizdə rus ordusu mövcud deyil. Rusiyadan iqtisadi asılılığımız yoxdur və əsas xarici siyasət tərəfdaşlarımız Avropa ölkələridir. Azərbaycan çox ehtiyatlı da olsa, avroatlantik inteqrasiyaya yönəlmiş qərbyönlü siyasət aparır. Azərbaycanın Ukrayna, Gürcüstan və Moldova kimi birmənalı strateji seçim etməməsi Rusiyanı məmnun etsə də, ölkəmizin yeritdiyi siyasət əslində Rusiyanın maraqları ilə ziddiyyət təşkil edir. İstər Cənub Qaz Dəhlizində, istərsə də Rusiyadan yan keçən nəqliyyat dəhlizlərində iştirakımız, Gürcüstanı Rusiyanın enerji asılılığından xilas etməyimiz, Türkiyə ilə getdikcə dərinləşən əlaqələrimiz Moskvanı məmnun edə bilməz. Azərbaycan bu siyasətini davam etdirəcəyi təqdirdə, Rusiyanın bizə olan münasibətində kardinal dəyişiklik gözləməyə dəyməz. Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində roluna gədikdə, son hadisələr göstərdi ki, Moskvanın bu problemin həllinə marağı yaranıb. Böyük ehtimalla yaxın gələcəkdə münaqişənin həlli üzrə danışıqlar prosesində irəliləyiş əldə ediləcək". **Lakin politoloq deyir ki, bu prosesin gedişində diqqətli olmaq lazımdır:** "Rusiya öz sülhməramlı qüvvələrini təmas xəttinə yerləşdirmək ideyası ilə çıxış edə bilər. Bu, təhlükəli məsələdir və Azərbaycan hakimiyyəti buna yol verməməlidir. Eyni zamanda, Kremldə belə bir baxış var ki, ərazi münaqişələrini sərhədlərin rolunun zəifləməsi əsasında həll etmək mümkündür. Yəni onların fikrincə, Avrasiya İqtisadi Birliyində iştirak etməklə ən azı iqtisadi-ticarət sərhədləri aradan götürülə bilər. Rusiya rəhbərliyinin fikrincə, Azərbaycan Ermənistanla birlikdə Avrasiya İqtisadi Birliyində təmsil olunarsa, problemin birdəfəlik həlli, xalqların barışığı üçün münbit zəmin yaranmış olar. Çünki bu halda Azərbaycan Ermənistanla eyni iqtisadi məkanda və Gömrük İttifaqında yer alacaq ki, bu da iki ölkə arasında siyasi-iqtisadi əlaqələrin yaranmasına, düşmənçiliyin aradan qalxmasına gətirib çıxaracaq. Bir növ, SSRİ dövründə olduğu kimi. Necə ki, hər iki ölkə - xalq - vaxtilə SSRİ-nin tərkibinə daxil olarkən aralarındakı münaqişəyə son qoymuşdularsa, indi də həmin varianta bənzər bir yol tapıla bilər". **Ş.Cəfərli qeyd etdi ki, bunu real informasiya əsasında deyir, şəxsi fikri deyil:** "Ona görə də çox diqqətli olmalıyıq. İtirilmiş torpaqlarımızın qaytarılması müstəqilliyimizin məhdudlaşması hesabına baş verməməlidir".

❑ **Cavid TURAN**

# Döyüşən ordumuz və ona güvənən, mərmì altındakı kəndlìlər...

**Aprel ayının 2-dən cəbhə bölgəsində başlayan döyüşlərdən Azərbaycan ordusu alnıaçıq çıxdı. Düşmən təxribatlarının qarşısını uğurla alan ordumuz keçirdiyi bir neçə əməliyyatlarla işğal altında olan ərazilərimizdəki yüksəkliklərdə möhkəmləndi. Ordumuz təmas xəttinin əksər istiqamətlərində strateji əhəmiyyətli məntəqələrin geri qaytarılması üçün həyata keçirdiyi əməliyyatlarda düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi.**

Rəsmi məlumatlara görə, Azərbaycan ordusu 31 şəhid verib. 4 mülki şəxs ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində dünyasını dəyişib. Ermənistan tərəfinin açıqladığı rəsmi məlumatlarda belə itkilərinin bizdən qat-qat artıq olduğu görünür.

Təmas xəttindəki döyüşlərdə Azərbaycan ordusu kimi dinc əhali də öz qəhrəmanlığını göstərməyi bacardı. Ordumuzun həyata keçirdiyi uğurlu əməliyyatlar, düşmənin məhv edilməsini əks etdirən videogörüntülər və məlumatlar barədə Müdafiə Nazirliyi hadisələr baş verdiyi gündən mütəmadi olaraq rəsmi məlumatlar verməkdə davam edir.

Əsgərin səngərdə döyüşdüyü bir vaxtda kəndləri tərk etməyən həmvətənlərimiz də onlara dəstəyini bu cür göstərməyə çalışdı.

Cəbhə bölgələrinin qorxmaz insanlarının bu cəsarətli addımını işıqlandırmaq üçün atəş xəttinə yollanan media nümayəndələri arasında "Yeni Müsavat" qəzetinin reportyor qrupu da oldu.

Əməkdaşlarımız Ağdam rayonunun təmas xəttində yerləşən bir neçə kəndində olaraq sakinlərin əhval-ruhiyyəsini, yaşadıqları vəziyyəti yerində görmək, düşmən atəşi nəticəsində kəndlərə dəyən ziyanları ictimaiyyət üçün işıqlandırmağa çalışıb.

Aprelin 4-də Ağdama yollanarkən ilk olaraq axşam saatlarında mərkəzdə- Quzanlı qəsəbəsində olduq. Qəsəbənin mərkəzində xeyli sayda şəxsin toplaşdığını, ətrafda polis əməkdaşlarının olduğunu gördük. Ərazidə toplaşan şəxslərlə söhbətimizdə öyrəndik ki, onların əksəriyyəti qəsəbə sakinləridir. Ətrafda olan xeyli sayda maşında isə yalnız qadın və uşaqlar var idi. Ağdam sakinləri deyir ki, döyüşlər başlayandan yalnız qadınlar, uşaqlar və xəstə olan yaşlılar kəndlərdən çıxarılıb. Qalan insanlar isə öz evlərindədir. Əksər kəndlərdən qadınlar axşam çıxarılsa da hava işıqlananda geri qayıdırlar: **"Kişilərin hamısı kəndlərdədir. Yalnız uşaqlarını və ailəsini çıxarmaq üçün kənddən çıxan var. Bu əraziyə gələnlər də ev olmadığından maşınlarda ailəsini yerləşdirdikdən sonra kəndə qayıdır. Ən azından hər evdən bir kişi öz kəndindədir".**

Ətrafda olan xeyli sayda polis əməkdaşları isə 24 saat rayon və kəndlərdə nəzarəti həyata keçirir.

Gecəni Ağdamın Alıbəyli-2 qəsəbəsində keçirməyi planlaşdırmışdıq. Qəsəbəyə aparan yollarda qruplar şəklində toplaşan sakinləri görürük. Tonqal ətrafına toplaşan kişilər, gənclər bizim mətbuat nümayəndələri olduğumuzu bilib, onlarla söhbətə çağırırlar.

Qəsəbədə işıq yanmır, bəzi evlərdə generator işığı görünür. Gecənin uzun olduğunu deyən 20-25 yaşlı qəsəbə sakinlərindən biri **"Qaqa, tonqala kartof atmışıq. Qonağımız olun. Onsuz da işıq yoxdur, qaz da kəsilib. Gəlin söhbət edək"** deyərək bizi tonqal ətrafına çağırır.































## Əməkdaşlarımız cəbhə xəttində gördüklərindən yazır...

Elə ilk söhbətimizdə kənd sakinlərinin əhvali-ruhiyyəsinin yüksək olduğunun, keçirilən uğurlu əməliyyatların onlara güvən və inam verdiyini hiss edirik. Ümumi söhbət Müdafiə Nazirliyinin açıqladığı rəsmi məlumatlar ətrafında davam edir.

Qəsəbəyə elektrik enerjisinin verilişi aprelin 4-də günorta saatlarından sonra dayanıb. Buna səbəb ermənilərin qəsəbəni elektrik enerjisi ilə təmin edən elektrik yarımstansiyasını vurması idi. Tonqal ətrafındakı söhbətlərimiz Ağdam, Tərtər istiqamətlərində ağır artileriyadan atılan atəşlərlə kəsilir.

Səhəri Alıbəyli-2 qəsəbəsində açırıq. Yolumuz təmas xəttində olan kəndlərədir.

Yolumuzu ilk olaraq Səfərli qəsəbəsindən salırıq. Səfərli və ona bitişik olan Baharlı qəsəbəsi qaçqınlar üçün salınan yaşayış məntəqələridir. Artıq bir dəfə qaçqınlıq həyatı yaşayan bu insanlar bir daha eyni aqibəti yaşamaq istəmirlər. Elə bu səbəbdəndir ki, söhbətləşdiyimiz insanlardan "başlamışıqsa, işi bitirmək lazımdır" cümləsini tez-tez eşidirik.

Ordumuza, əsgərimizə olan inamı, güvəni hər cümlələrində bizə çatdırmağa çalışan Ağdam sakinləri son hadisələrdən sonra işğal altında olan ərazilərimizin azad ediləcəyini səbirsizliklə gözləyir. Hər iki qəsəbənin mərkəzi yollarında kənd sakinləri toplaşıb. Onlar uşaqları və yaşlıları evlərdən çıxardıqdan sonra kəndlərində sakin kimi yox, əsgər kimi növbə çəkirlər.

**İlyas Quliyev** Baharlı qəsəbəsinin sakinidir. Ehtiyatda olan zabit kimi deyir ki, bir əmrlə döyüş bölgəsinə getməyə hazırdır: **"Biz 24 ildir bu günü gözləyirdik. Artıq zamanıdır. Torpaqlarımız işğaldan azad edilməlidir. Biz Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyirik. Bilirik ki, ordumuzun lazımı qüvvəsi var. Ancaq istəyirik ki, əsgərimiz bilsin ki, biz onun yanındayıq".**

Yol boyu əkin sahələrində çalışan kənd camaatını, heyvan otaran sakinləri görürük. İnsanlarla söhbətimizdə müharibə ab-havasını aydın müşahidə edirik. Səfərli qəsəbəsinə bu günədək düşmən zərbələri dəyməsə də Baharlı qəsəbəsinə aprelin 2-də bir neçə mərmi düşüb. Eyni ilə sonrakı günlərdə də. Nəticədə evlərə və həyətyanı sahələrə ciddi ziyan dəyib.

Yolda qarşımıza heyvanlarını otaran Taleh Piriyev çıxır. Ondan gəldiyi kənddəki vəziyyəti və insanların əhval-ruhiyyəsini soruşuruq. Aldığımız cavab heç də bu vaxtadək eşitdiklərimizdən fərqli olmur: **"Döyüşlər başlayandan hər gecə burda olmuşuq. Yusifcanlı kəndində yaşayırıq. Qadınları və uşaqları yola salmışıq. Özümüz kəndimizdə postdayıq. Heyvanları otlağa aparıb geri qayıdıram. Ordumuzun gücünə inanırıq. Şükürlər olsun ki, artıq qələbə yaxınlaşır».**

Baharlıdan sonra yolumuz Əhmədağalı kəndinədir. Əhmədağalı xain düşmənin atəşi nəticəsində mülki şəxslərindən itki verən Ağdam kəndlərindən biridir. Yaşayış məntəqələrini gecə-gündüz atəşə tutmaqdan çəkinməyən ermənilər bu kənddə xeyli sayda evi yararsız vəziyyətə salıb, mal-heyvan tələfatına səbəb olublar. Aprelin 4-də kənd məscidinin yaxınlığına düşən mərmi kənd sakini Qaraş Dadaşovun həyatına son qoyub. Kənd sakininin 16 baş heyvanı da məhv olub. Mərmi düşən evlər tamamilə dağılıb. Qonşu evlərə mərmi düşsə də kənd sakinlərini öz evlərində görürük.

**"Biz gecələr kənddə posta çıxırıq. Əsgərimizin yanındayıq".**

Ərazidə xidmət aparan polis əməkdaşları ilə də söhbətləşib, rayondakı ümumi vəziyyəti öyrənirik. Polis əməkdaşları deyir ki, düşmənə lazım olan cavabı ordumuz verir, onlar isə sadəcə olaraq kənddə nəzarəti həyata keçirirlər.

Torpaqlarımızın işğalından sonra hər gün düşmən gülləsi ilə üz-üzə olan Çəmənli kəndi bizə heç də yad deyil. Düşmənin atəşkəsi pozması nəticəsində mərmi altında olduğunu Müdafiə Nazirliyinin rəsmi məlumatlarında daim gördüyümüz Çəmənli bu dəfə normal günlərdən qat-qat artıq düşmənin hədəfinə çevrilib. Aprel ayının 2-dən etibarən kəndə onlarla mərmi düşüb. Xoşbəxtlikdən insan tələfatı qeydə alınmasa da xeyli sayda mal-heyvan tələf olub. Kəndin məktəbi də düşmən gülləsinin hədəfində olub. Hazırda kənddən uşaqlar və yaşlılar çıxarılıb.

Aprelin 3-də kənd sakini Şakir Şahlarovun evi düşmən mərmisinə tuş gəlib. Evin bir hissəsi uçub, tövlə tamamilə dağılıb. Tövlədə olan inək və digər xırda buynuzlu heyvanlar tələf olub. Ev yararsız vəziyyətdə olduğundan sakinlər oranı tərk etməli olublar.

Aprelin 4-ü və 5-də də kənd müxtəlif vaxtlarda atəşə tutulub. Aprelin 5-də səhər saat 10 radələrində Çəmənliyə atılan mərmilərdən biri Nərminə Soltanovanın yaşadığı evin həyətinə düşüb. Soltanovlar ailəsi və qonşuları bu zaman evlərində yox, həyətdə olublar. Kənd sakinlərindən təxminən 150 metr kənara düşən mərmilər evlərə ziyan vurub.

N.Soltanova deyir ki, evlərdə olmadıqları üçün onlardan heç biri xəsarət almayıb. Lakin həyətdə olan qoyunlar və at mərmilərin qəlpəsindən ciddi xəsarət alıb. Bir neçə heyvan məhv olub. Evlərin tavanı, pəncərələr dağılıb. Həyətdə olan ağaclar da qırılıb: **"Dünən də kəndə atırdılar. Əsgərlərimizin cavab atəşindən sonra susdular. Hamımız kənddəyik. Əsgərlərimiz bizi qorumaq üçün səngərdədir. Biz buranı qoyub hara gedə bilərik? Səngərdəkilər bizim balalarımızdır".**

**Həsən Məmmədovun** evi də atılan atəşlər nəticəsində zərər görüb. Sahədə olan mal-qaraya isə ziyan dəyib. **"Səhərdən evdən çıxmışdıq. Mal-heyvanı çölə aparmışdıq. Elə bu döyüşlər başlayanda olduğu kimi indi də evdəyik. Uşaqları qohumların evinə göndərmişik, ancaq özümüz torpağımızda, yurdumuzdayıq. Əvvəl necə, indi də elə həyatımızı yaşayırıq" -** deyən H.Məmmədov mülkünə və həyətyanı sahəsinə dəyən zərəri göstərir.

**Kənd sakini Qaməddin Qurbanov** hava qaraldıqdan sonra bir yerə toplaşdıqlarını və gecə saatlarınadək kənd mərkəzində və girişlərdə oturduqlarını söyləyir: **"Bəzən kəndə tanımadığımız insanlar gəlir. Bunlar arasında jurnalistlər də olur, nə məqsədlə gəldiklərini bilmirik. Rusiyadan gələn jurnalistlərin nə əməl törətdiklərini gördük. Ona görə biz də kənd sakinləri olaraq dövlətimizə dəstək olmağa çalışırıq. Axşamlar da, səhərlər də kənddə postdayıq. Heç kim, heç bir yerə getmir. Özümüz üçün kənd içində sığınacaqlar düzəltmişik. Axşamlar burada müşahidələr aparırıq".**

Çəmənliyə qonşu olan Zəngişanlı da atılan atəşlər nəticəsində ziyan görən kəndlərimizdəndir. Kənddə bir neçə ev tamamilə dağılıb. Aprel ayının 2-dən kəndin müxtəlif ərazilərinə xeyli sayda artilleriya zərbələri endirilib.

Aprelin 5-də səhər saatlarında atılan mərmilər kənd sakini Cavid Qurbanovun həyətyanı sahəsinə düşüb. Həyətdəki ağaclar qırılıb, evin dam örtüyünü yararsız vəziyyətə salıb.

1-ci Sarıcalı kənd tam orta məktəbi də düşmənin atəş zərbələrinə məruz qalıb. Məktəbin dam örtüyü dağılıb, binanın bir hissəsi uçub.

Ordunun cəbhədəki qəhrəmanlığından ağız dolusu danışan Ağdam sakinləri qələbə əzmində idilər.

Gördüyümüz, müşahidə etdiklərimiz budur ki, artıq 24 ilin həsrəti hər kəsin səbrini daşırıb. "Başlamışıqsa, bu işi bitirək" deyən cəbhə bölgəsinin insanları döyüş əmrini gözləyir.

**Ağdam Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Elçin Qasımov** da bizi ürəkləndirən sözlər deyir. Polis rəisi ordumuzun uğurlarından danışarkən inamlı olmağımızı istəyir: **"Ordumuz irəlidədir. Xoş xəbərləri neçə gündür hamımız eşidirik. Biz də xidmətdəyik. Hər an veriləcək əmrə hazırıq".**

Biz Ağdamdan ümidlə, aldığımız böyük xoş xəbərlərlə, gördüyümüz möhtəşəm mənzərə ilə qayıdırıq. Səngərdə əsgər, onların arxasındakı kəndlilər və daim cəbhədən gələn xəbərləri izləyən, ürəyi qələbə sevinci ilə çırpınan məmləkətimizin insanları...

**❑ İlkin MURADOV,**
**Məhəmməd TÜRKMƏN**
**Bakı-Ağdam-Bakı**

YENİ MÜSAVAT
N 73 (6394) 7 aprel 2016

# Kritik dönəmlərin xalqı...

**Aprelin 2-dən cəbhədə başlayan və ayın 5-dək davam edən döyüşlər həmçinin Azərbaycan xalqının milli mövzuda birliyini, vətənpərvərliyini bir daha nümayiş etdirdi. Yaşlısından tutmuş gəncinə, hətta azyaşlısına qədər hər kəs döyüşmək, torpaqlarımızı azad etmək istədiyini açıq şəkildə bildirdi.**

## 4 günlük müharibədə xalqımız bir oldu; döyüşlər cəmiyyətimiz barədə zaman-zaman səslənən mənfi fikirlərin üzərindən tamam xətt çəkdi

4 günlük müharibə xalqımız barədə zaman-zaman səslənən mənfi fikirlərin üzərindən tamam xətt çəkdi. Əslində qalsa, tarixə nəzər salsaq görərik ki, daim belə olub. Milli problem söz konusu oldusa, xalqımız problemin həlli üçün vahid şəkildə birləşir. Amma bu məsələdə bir maraqlı nüans da var. Belə ki, sülh və sakitçilik olan zamanlarda Azərbaycan xalqının birliyinin şahidi olmuruq. Bu da bəzi vaxtlarda müxtəlif fikirlərin yaranmasına səbəb olub.

Bir amili unutmaq olmaz ki, Azərbaycan xalqı 80-cı illərin sonlarında milli azadlıq hərəkatından vahid şəkildə meydanlara çıxan, aylarla meydanlarda yatan, dünyada ilin xalqı seçilən və əzmkarlığı sayəsində müstəqilliyini əldə edən xalqdır. 1990-cı ilin 20 Yanvar faciəsi də bu xalqın müstəqilliyə gedən yoldan geri çəkilməsinə səbəb olmayıb.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, milli azadlıq hərəkatının öndə gedən isimlərindən olan Sabir Rüstəmxanlı 4 günlük müharibə ilə bağlı xalqa qiymət verməyin düzgün olmadığını söylədi:** "Xalq haqqında 4 gündə baş verən hadisələrlə bağlı nəticə çıxarmaq, xalqın 4 gündəki görüntüsündən təəccüblənən şəxslər xətirlərinə dəyməsin, bu milləti tanımayan, xalqa cahilcəsinə yanaşan şəxslərdir. Bu məsələlər barədə on illərdir fikir bildiririk. 88-ci illərdə gedən proseslərdə bunun şahidi olmuşam. Meydana bir milyon insan yığışanda aparıcı iki şəxsdən biri idim. Millətimin ruhunu yaxşı bilirəm. Bütün yazılarım xalqımın aşağılanmasına, müqavimətinin qırılmasına qarşıdır. Xalq öz yerindədir. Dəyişən, sadəcə, qazanın üzüdür. Azərbaycanı sınaq meydanına çevirmək istəyən qüvvələr var. Ölkəmizə qarşı hər cəhətdən böyük hücumlar var. Bu hücumların 100 illik yaşı var. Azərbaycan dünyanın qədim mədəniyyət mərkəzlərindən biridir. Burada intellektual cəhətdən güclü millət yaşayır. Bu milləti sındırmaq mümkün deyil. Müəyyən faizlər yaranır, dəyişikliklər olur, amma xalq yerində dayanır.



**Sabir Rüstəmxanlı:** "Bu milləti sındırmaq mümkün deyil"



**Nemət Pənahlı:** "Xalqımız bu torpaqları işğaldan azad edəcək"

Lazım olduğu vaxt bu xalq torpağının daim müdafiəsinə qalxıb. Təəssüflər olsun ki, hazırda ölkəmizdə psixoloji durum yaranıb. Bu da hakimiyyətlə xalq arasında yaranan ayrı-seçkilikdir. İlk addımı hakimiyyət atmalıdır. Xalqın inamını qırmaq olmaz. Çalışıb, milləti dövlət ətrafında birləşdirmək lazımdır. Xalqın iradəsini heç nə ilə qırmaq olmaz".

**Milli Dövlətçilik Partiyasının sədri, milli azadlıq hərəkatının öncüllərindən olan Nemət Pənahlı xalq barəsində səslənən fikirlərə belə münasibət sərgilədi:** "Bir millət dəniz kimidir. Onun qabarması və geri çəkilməsi var. 70 illik sovet dönəmində elə zənn edirdilər ki, bu millətin başı kəsilib, bir daha ayağa qalxa bilməz. Tarix göstərdi ki, bu millət ayağa qalxıb sovet imperiyası kimi bir güclü imperiyanı diz çökdürdü. Bəzi zamanlarda ruhdan düşmə, millətin özünü qınaması halları ola bilər. O zaman atəşkəs elan olunanda hakimiyyətdə rəsmi şəxs kimi təmsil olunurdum. Dövlət məmuru olsam da, bildirmişdim ki, hərbi yolla itirilən torpaqlar sülh yolu ilə azad edilə bilməz. Ermənilər tarixi saxtalaşdıraraq, Rusiyanın dəstəyi ilə qan tökərək torpaq zəbt ediblər. Ona görə də öz xoşluqları ilə həmin əraziləri tərk etməzlər. Tezliklə xalqımız bu torpaqları işğaldan azad edəcək. Türk milləti dünyaya yön verən barmaqla sayılacaq millətlərdəndir. Millətə düzgün istiqamət vermək lazımdır. Azərbaycan gəncliyi bizim dövrümüzdən daha irəli gedib, daha cəsarətli, vətənpərvər və mübarizdirlər. Çünki onlar əsarət görməyiblər. İndiki gənclik Müstəqil Azərbaycanda yaşayıb. Onlar müstəqilliyin nə olduğunu yaxşı bilirlər. Dünya gəncliyin üzünə açıqdır. İnternet əsrində yaşayırıq. Azadlığa çıxandan sonra heyrət edirəm ki, qarşımızda bu qədər imkanlar açılıb. İdeyaları yaymaq çox asandır. Millətimiz qələbəyə təşnədir. Qələbə hissləri gec-tez öz bəhrəsini verəcək".

❑ **Cavanşir ABBASLI**

# Kərimlinin jestinə hakimiyyətdən cavab olacaqmı...

## AXCP sədri kritik dönəmdə iqtidara reverans etdi; bəzi iddialara görə, bu, öncədən olan anlaşmanın ifadəsi idi; lakin...

**Cəbhədə baş verən və günlərlə davam edən döyüşlərdə ölkəmizin siyasi qüvvələri təqdirəlayiq birlik nümayiş etdirdilər. Əksər siyasi qüvvələr gedən proseslərdə Azərbaycan dövlətinin yanında olduqlarını bəyan etdilər.**

Hərbi əməliyyatların başladığı ilk gündən AXCP sədri Əli Kərimli hakimiyyətə açıq jest etdi. O, sosial şəbəkələrdə paylaşdığı statuslarda hakimiyyətin və əsgərlərimizin yanında olduqlarını bəyan etdi. Hətta AXCP sədri tərəfdarlarına müraciət edərək, hökumətin hərbi siyasətini, ordu quruculuğunu təftiş etməməyə, əhali və orduda ruh düşkünlüyü yaradacaq statuslar paylaşmamağa çağırdı. Kərimlinin statusları sosial şəbəkələrdə ciddi müzakirə mövzusuna çevrildi. Müxtəlif iddialar meydana çıxıb. Hətta bəzi iddialara görə, Əli Kərimli hərbi eskalasiyalar başlamazdan öncə iqtidarla anlaşıbmış. Bu bəyanat, sadəcə, fürsət yaradıb və o, faktın ifadəsidir.





Lakin bəzi ekspertlərin fikrincə, Kərimli bu jesti sırf siyasi hesablamalar və çıxar baxımından edib: **"O, hakimiyyətlə anlaşmaq və gözlənilən gələcəkdəki sistemdaxili müxalifət rolunu oynamaq istəyər. Necə ki, 1995-2003-cü illərdə məhz onun rolu bu idi. Lakin hakimiyyət buna getmir. Əli Kərimli ayıq siyasətçidir. Elə məqamda elə bir jest etdi ki, iqtidarı özünə borclandırdı. Onun çoxsaylı problemləri var. Yaxın qohumu - qayını həbsdədir. Təşkilatından mühüm simalar da zindanda cəza çəkirlər. Qərargahı yoxdur. Zamanında İsveçrə banklarından birinə yerləşdirdiyi 2 milyon dollar həcmində depozitinə qovuşmamaq üçünsə hakimiyyət ona xarici pasport vermir. Çevrəsi, dayaqları zəifləyib. Daha bir il də bu cür davam etsə, ondan hətta virtual aləmdə də bir şey qalmayacaq. Bu baxımdan, Qərb yaltaqlığı taktikasında verdiyi bəyanat onun son şansı kimidir. Lakin mümkündür ki, bu cəhd uğurlu alınıb. Hakimiyyət tərəfindən mütləq bir qarşılıq olacaq..."**, deyə, Kərimlini yaxşı tanıyan siyasətçilərdən biri musavat.com müxbirinə söyləyib.

Artıq siyasət dəhlizlərində də Əli Kərimlinin bu jestinə görə onun həbsxanada olan qohumunun və iki yaxın adamının - müavini Fuad Qəhrəmanlının və tanınmış jurnalist Seymur Həzinin azadlığa buraxılacağı barədə iddialar dolaşır.

İnsaf naminə, Əli Kərimlinin son mövqeyi təqdirəlayiqdir. Hətta siyasi çıxarlara görə hərəkət edibsə də, bu mövqe ən dürüstüdür. Əks halda, onun ictimai dayaqları daha da sarsılar, millət tərəfindən qınanardı.

Əli Kərimlinin dəstək statusları və 4 günlük savaş dönəmində sərgilədiyi iqtidaryönümlü kursu qeydiyyatı şübhə altında olan AXCP-nin hüquqi varisliyinə yiyələnmək üçün də mühüm rol oynaya bilər. Hazırda məhkəmə müstəvisində narazı qanad olan Razi Nurullayevlə çəkişmələrin getdiyini nəzərə alsaq, bu versiya bir qədər inandırıcı görünür. Hazırda Kərimlinin əsas siyasətinin partiyanı əlində saxlamaq olduğu heç kəsə sirr deyil. Çünki uzun müddətdir rəhbəri olduğu qurumun əldən çıxma təhlükələri aylardır davam edir və bu məsələdə artıq son mərhələdir.

Beləliklə, Kərimli bir gediş etdi və indi onun cavabını gözləməkdədir. Məncə, o qədər də çox gözləməyəcək...

❑ **Cavanşir ABBASLI**

# Geriyə yol yoxdu



**Hüseynbala SƏLİMOV**

**İnsanlar arasında qeyri-adi ruh yüksəkliyi var. Dərhal başa düşürsən ki, bu millətə qələbə lazımdır. Bəli, qələbə lazımdır ki, on illərin sınıqlığından çıxa bilsin. Qələbə lazımdır ki, özünə inamsızlığı, milli natamamlıq kompleksini birdəfəlik kənara tullasın...**

İnsan nə qədər fərdiyyətçi olsa da yenə özünü bir tamın - bir cəmiyyətin hissəsi sayır. O halda məxsus olduğu tamdan qürur duyur ki, bu, onu daha da güclü, daha da azad etsin.

Qərəz, əvvəlki illəri də görən adam kimi deyə bilərəm ki, daha panika, qorxu yox olub, insanlarda özlərinə və aid olduqları millətə inam artıb...

Mübaliğəsiz demək olar ki, hamı bu son günləri Qarabağla yaşayır. Uzun illərin yazarı kimi onların hansı mövzulara diqqət kəsildiyini bilirəm. Maraq doğuran mövzular arasında ən azı Minsk Qrupu ilə bağlı yazılanlar yoxdur. Bu mövzuda gözəl yazı da yaza bilərsiniz, amma oxunmayacaq. O səbəbdən ki, 24 il Minsk Qrupu haqda qənaət əldə etməyə imkan verib...

Amma öz səylərimizlə, Qarabağı öz gücümüzlə qaytarmaqla bağlı yazılanlar olduqca maraqla oxunur...

Demək, səbəbi, məğlubiyyətin kökünü cəmiyyətdə axtarmaq lazım deyil. Bəli, vaxtında onu yaxşı silahlandırmadılar, yaxşı təşkil etmədilər, nəticədə də məğlubiyyət oldu. Millət hər dəfə bunu diqqətə gətirmək istəyir, özünü heç də düşmən Ermənistan qarşısında məğlub hesab etmir...

Belə də olmalıdır. Bir sözü qoyub başqasına, bir mövzunu tamamlamamış o birisinə keçirəm. Amma haradasa oxşar şeylərdir bunlar. O gün bir suriyalının çıxışına qulaq asırdım. Jurnalistə deyirdi ki, ölkənizdə müharibə getsəydi nə edərdiniz, qaçmazdınızmı?..

Məsələ məni çox düşündürdü. Bir neçə gün onun dediklərinin təsirindən ayıla bilmədim.

Qaçmaq! Niyə? Nə üçün?!.. Sizə deyim ki, avropalıların suriyalı qaçqınlara münasibətini başqaları kimi elə də qeyri-humanizm kimi və yaxud da ki, qeyri-bəşəri davranış kimi yozmuram. Bəli, Avropanın da günahı var və bunu etiraf edirəm...

Amma əsas günahkar yenə də suriyalılardır. Onlar qaçmalı deyillər, ölkələrində sahman yaratmağa çalışmalıdırlar. Heç kim onların əvəzində bu sahmanı yaratmayacaq. Heç kim onların əvəzində Suriyada qayda-qanun qurmayacaq. Bunu suriyalılar özləri etməlidirlər. Etməsələr, etmək istəməsələr heç nə alınmaycaq. Orta statistik suriyalı hesab edir ki, Avropa cənnətdir və yetər ki, özünü bu cənnətə yetirəsən, sonra hər şey axarı ilə gedəcək...

Amma heç fərqində də deyillər ki, həmin cənnəti qurmaq üçün avropalılar yüz illərlə çalışıb-vuruşublar, elə indi də bircə an dayanmırlar...

Bunları niyə deyirəm? Azərbaycandan Avropaya və ya başqa ölkəyə böyük axın olmadı. Amma qaçqınlığı və qaçqınları biz də gördük. Bir daha deyirəm ki, bu, bir az fərqli məsələlər idi - bizim insanlarımız nəinki uzaq Avropaya, heç yaxın Türkiyəyə, İrana və ya Rusiyaya da üz tutmadılar, ölkələrinə və öz millətlərinə sığındılar. Bəlkə də ona görə ki, bir daha o torpaqlara qayıtmaq və bir daha o yerlərin sakini olmaq üçün...

Amma bizim də günahımız az olmadı. Bir daha deyirəm ki, Avropaya-filana üz tutmadıq, amma qaçmağın adı qaçmaqdır. Bunu gərək etiraf edək. İndi çox çalışırıq, özümüzü oda-közə vururuq. Real nəticə əldə etməksə çətin olur. Ona görə ki, düşmən vaxtilə hərbi teatrı çox yaxşı mənimsəyib.

Məsələn, bizə hələ də elə gəlir ki, vaxtilə o, Xocalını yalnız daha bir Azərbaycan rayonunu tutmaq, daha bir bölgənin azərbaycanlı əhalisini qırmaq üçün tutdu. Təbii ki, bu amillər də vardı. Amma düşmən bölgədəki hərbi teatrı gözəl bilirdi və onu Xocalıda cəlb edən başqa məqam vardı - bu bölgənin hərbi teatr üçün mühüm əhəmiyyəti vardı və oranı ələ keçirməklə Azərbaycanı çox zəiflətmək olardı...

İndi biz də əvvəlcə elə nöqtələri tutmalıyıq ki, onları əldə etməklə ümumi hərbi teatra nəzarət etmək, onu idarə etmək mümkün olsun...

Başa düşməliyik ki, geriyə yol yoxdur... Hər fürsətdən istifadə edərək addım-addım irəliləməliyik. Bunun üçün isə hərbi teatrı bilmək çox vacibdir. Bəzən görürsən ki, kiçik bir yüksəklik çox böyük bir sahəni nəzarətdə saxlamağa və bu ərazini idarə etməyə imkan verir...

Başqa yol yoxdur... Döyüşə-döyüşə döyüşçü olmalı, müasir müharibənin sirlərinə yiyələnməliyik. Ona görə ki, daha geri çəkiləsi yer qalmayıb və bu savaşda yalnız bircə taktika var - irəliyə doğru addımlamaq. Nəyin bahasına olursa-olsun...



# Qərb mediası Ermənistanı yerə vurdu

**“The Washington Times”:** “Azərbaycana qarşı təcavüz Ermənistanı uçuruma sürükləyib”, “Qarabağda marionet rejim qurulub”; rusiyalı tanınmış hərbi ekspert isə hesab edir ki, Azərbaycanla savaşda işğalçı ölkənin məğlubiyyəti qaçılmazdır...

**Azərbaycanla Ermənistan arasında 4 günlük müharibə Qarabağ mövzusunu yenidən aparıcı Qərb mediasının gündəminə gətirib. Amerikanın nüfuzlu “Teh Washington Times” nəşri də son sayında bu problemə toxunub. Qəzet Yaxın Şərq, Avrasiya və postsovet ölkələrində hadisələrin analizi üzrə ixtisaslaşmaı şsiyasi şərhçi Castin Emperin son hərbi toqquşma ilə bağlı məqaləsini dərc edib.**

Məqalədə bu eskalasiyanın son 20 ildə ən geniş miqyaslı olmasına diqqət çəkilir. Müəllif işğal altındakı ərazilərdəki son olayları ABŞ prezidenti Barak Obamanın Nüvə Sammitinə dəvəti əsasında prezident İlham Əliyevin ABŞ-a uğurlu səfəri ilə əlaqələndirir. “Əliyevin ABŞ-a dəvəti Azərbaycanın qlobal nüvə təhlükəsizliyi və terrorla mübarizə məsələsində artan rolunun Vaşinqton tərəfindən etirafıdır. Azərbaycan özünün stabil hökuməti, dayanıqlı iqtisadiyyatı və etnik tolerantlığı ilə Qafqazda - son vaxtlar qeyr-stabilliyi ilə tanınan bir regionda sabitləşdircii gücdür. Amerikaya səfər yalnız uğurlu sayıla bilər”.

**Müəllifə görə, dünya səhnəsində məhz Azərbaycanın güclü və strateji mühümlük imicinə qarşı Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ regionundakı marionet rejimi qoyulub. Ekspertin sözlərinə görə, erməni silahlı qüvvələrinin təmas xətti boyu kəndlərə hücumu Azərbaycan Silahlı Qüvvələrini cavab verməyə məcbur etmək niyyəti güdüb.** “Bunu da Azərbaycan ordusu etməli oldu. Ermənistanın məqsədi Azərbaycanı dünyada neqativ obrazda təqdim eləməkdir”.

**Ermənistanın öz siyasi və iqtisadi müstəqilliyini itirməsindən danışan analitik ardınca qeyd edir ki, erməni millətçiliyi və Azərbaycana qarşı təcavüz Ermənistanı uçuruma sürükləyib.** “Beynəlxalq birlik BMT Təhlükəsizlik Şurasının və Avropa Şurası Parlament Assambleyasının qətnamələri ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir” - yazıb ekspert və onu da əlavə edib ki, konfliktin həlli sürətləndirilməlidir.

***

“Dağlıq Qarabağda hərbi vəziyyət qeyri-stabildir, Ermənistan məğlub olmaq üzrədir. Ona görə ki, Ermənistan ordusu texnoloji cəhətdən Azərbaycan ordusundan çox geridə qalır. Azərbaycan ordusu texnoloji cəhətdən müharibəyə daha yaxşı hazırlaşıb”. Bunu isə rusiyalı tanınmış hərbi ekspert, “Novoya qazeta”nın hərbi şərhçisi Pavel Felgenqauer bildirib (APA).

**Ekspert Azərbaycan ordusunun sərəncamında təkcə Rusiyadan yox, həm də İsraildən alınan müasir texnikaların olmasını xatırladıb:** “İsraildən alınan pilotsuz uçuş aparatları ilə Azərbaycan Ermənistan ordusunun içinə belə daxil ola bilir və dəqiq zərbə ilə istədiyi hədəfi məhv edir. Bunu son 3 gündə münaqişə zonasında baş verənlər bir daha sübut etdi. Ona görə də hazırki vəziyyətdə Ermənistan üçün hücum müharibəsi qəbul edilməzdir. Bu müharibədə Ermənistan məğlub olmağa məhkumdur. Texnoloji qeyri-bərabərlik bunun əsas səbəblərindən biridir”.

**Onun sözlərinə görə, Ermənistan müharibəyə hazır deyil:** “Ya da İrəvan Rusiyadan pilotsuz uçuş aparatları almalıdır, ordusunu daha müasir texnika ilə təmin etməlidir. Hazırkı şərtlərlə Ermənistan müharibəyə davam etsə, yəni münaqişənin eskalasiyası daha da güclənsə, bu, Ermənistanın tam məğlubiyyəti ilə nəticələnəcək”.

**Felgenqauer Rusiyanın Dağlıq Qarabağdakı hərbi qarşıdurmanı necə dəyərləndirdiyini də şərh edib. Onun fikrincə, rəsmi Moskva hələlik bu barədə nə edəcəyini bilmir:** “Rusiya hələ münaqişə zonasında vəziyyətin nə dərəcədə ağırlaşmasını dəqiqləşdirməyib. Moskva məsələyə yalnız siyasi anlamda qarışa bilər. Tərəfləri münaqişəni dayandırmağa, danışıqlar masasına əyləşməyə məcbur edə bilər. İndiki vəziyyətdə Ermənistana hərbi dəstək verməyi Rusiya istəməz. Çünki bu, Rusiyanın strateji maraqlarına uyğun deyil. Rusiyanın strateji maraqları Cənubi Qafqazda bütün ölkələrlə yaxşı münasibət qurmaqdır. Azərbaycanla münasibətləri korlamaq Moskvanın strateji maraqlarına cavab vermir. Ona görə də Moskva çalışacaq ki, atəşkəs əldə olunsun”.

**Hərbi jurnalistə görə, Azərbaycanın Ermənistandan hərbi üstünlüyü göz qabağındadır. O, münaqişənin danışıqlar yolu ilə həllinə inanmadığını da söyləyib:** “Hazırda Dağlıq Qarabağdan başqa 7 rayon da işğal altındadır. Uzun illərdir həmin rayonların ilkin mərhələdə geri qaytarılması ilə bağlı danışıqlar gedir. Lakin bu danışıqların heç bir nəticəsi olmayıb. Bundan sonra da danışıqlarda bu məqamın öz həllini tapacağı inandırıcı deyil”.

**Siyasi şərhçi Dağlıq Qarabağdakı hərbi qarşıdurmanın Rusiya KİV-lərində birtərəfli işıqlandırılması məsələsinə də toxunub. O, bunu erməni lobbisinin Rusiyada güclü olması ilə əlaqələndirib:** “Həqiqətən Rusiya KİV-ləri ermənipərəst mövqe sərgiləyir. Ona görə ki, ölkə mediasının rəhbərliyində çoxlu sayda ermənilər təmsil olunurlar. Rusiyada Azərbaycan lobbisi də mövcuddur, lakin erməni lobbisi ilə müqayisədə zəifdir”.

❑ **Siyasət şöbəsi**

# İsrailin Qarabağ məsələsində mövqeyi niyə çox önəmlidir?

## “Yəhudi lobbi təşkilatları dünyanın bir çox ölkələrində ictimai rəyə, siyasətçilərin qərarlarına təsir edə bilərlər”

**İsrail yenidən alovlanan Qarabağ münaqişəsinə münasibətdə bitərəf qalmağa çalışır. Bununla bağlı Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov “Jerusalem Post” qəzetinə müsahibəsində deyib ki, ölkəmiz İsrailin bu məsələ barədə öz mövqeyini bildirməsində maraqlıdır.**

Jurnalistin “Siz hörmət və ehtiram bəslədiyiniz İsraildən nə gözləyirsiniz” sualının cavabında Əli Həsənov deyib: “Biz istərdik ki, İsrail burada baş verən hadisələrə münasibətini bildirsin. İsrail dünya birliyinin və ATƏT-in üzvü kimi Ermənistandan atəşi dayandırmasını, danışıqlara başlamasını və beynəlxalq hüquq normalarına hörmət etməsini tələb edə bilər”.

Əli Həsənov bildirib ki, İsrail Azərbaycanın strateji tərəfdaşıdır. Azərbaycan öz tərəfdaşlarından gözləyir ki, onlar ölkəmizin işğal edilmiş ərazilərində qoşunların təmas xəttində Ermənistan tərəfindən törədilmiş aqressiv hərbi provokasiya ilə bağlı son hadisələrə münasibət bildirsin.

Bəs İsrailə xüsusi önəm verilməsi nə ilə bağlıdır? İsrailin mövqeyi bu qədərmi əhəmiyyətlidir və hansı təsirləri ola bilər?

**Siyasi ekspert Bəxtiyar Hacıyev** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Azərbaycan son günlərdə öz haqlı mövqeyinin dünyaya çatdırılması, Ermənistanın danışıqlar masasına oturması və konstruktiv mövqe göstərməsi üçün müxtəlif yollarla təzyiqlərə çalışır. Əli Həsənovun İsraildən Azərbaycanın strateji tərəfdaş kimi ortaya mövqe qoyması gözləntisi çox güman ki, İsrailin Ermənistana birbaşa təsir imkanlarına görə yox, İsrailin aparıcı Qərb dövlətlərində, xüsusilə ABŞ-da çox güclü lobbi təşkilatlarının olmasına görədir: “Heç kimə sirr deyil ki, ABŞ-da müxtəlif postlara, o cümlədən ABŞ prezidentliyinə namizədliyini irəli sürən siyasətçilər Amerikadakı AIPAC kimi yəhudi lobbi təşkilatlarının dəstəyini qazanmağa çalışırlar. Azərbaycan prezidenti İlham Əliyev də Vaşinqtona son səfərində AIPAC liderləri ilə görüşdü. Yəhudi lobbi təşkilatları dünyanın bir çox ölkələrində ictimai rəyə, siyasətçilərin qərarlarına təsir edə bilərlər. Bu baxımdan da Əli Həsənovun İsraildən Qarabağ münaqişəsi ilə bağlı mövqe gözləntisini birbaşa İsrailin Ermənistana təzyiqi kimi yox, İsrailin öz lobbi təşkilatları vasitəsilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, münaqişənin həlli istiqamətində addım atması xahişi kimi qəbul etmək lazımdır”.



**Yeni AXCP-nin rəhbəri Razi Nurullayev isə bildirdi ki, Azərbaycan tərəfi özündə haqq görməsəydi, İsrailin bizi müdafiə etməsi gözləntisini dilə gətirməzdi. Əli Həsənov da bu gözləntidən çıxış edərək, İsraili Dağlıq Qarabağda baş verən son olaylara münasibət bildirməyə səsləyib:** “Bu da özünü çox gözlətmədi. İsrailin keçmiş xarici işlər naziri Aviqdor Liberman artıq münasibət bildirib və Azərbaycanı açıq şəkildə dəstəkləyib. Azərbaycanla İran arasında son zamanlara kimi davam edən soyuq münasibətin qayəsində dayanan məsələlərdən biri də Azərbaycanın İsrail dövləti ilə yaxşı münasibətlər saxlaması və dostluq etməsi olub. Ölkəmiz İsraillə həm hərbi, həm də digər sahələrdə çoxmilyardlıq işlər görüb. Bu, kiçik bir vəsait deyil. Əlavə olaraq, Azərbaycan Fələstin məsələsində Türkiyə qədər İsrailin üzərinə getməyib. Ümumiyyətlə, Azərbaycan qədər İsraillə isti və dostluq münasibəti saxlayan ikinci müsəlman dövləti yoxdur. Hətta Azərbaycan Türkiyə-İsrail münaqişəsində İsraillə kiçik bir körpünü belə yandırmadı. Azərbaycanın İsrail dövlətinə qarşı yaxşı münasibəti presedentsiz bir haldır. Ona görə də Azərbaycan tərəfi İsrail dövlətinə ərklə nəsə deyə bilir”.

İsrailin sabiq xarici işlər naziri, İsrail - “Bizim evimiz” Partiyasının rəhbəri Aviqdor Libermanın açıqlamasında isə deyilir ki, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyi regionun tarixinə, coğrafiyasına, demoqrafik faktlara əsaslanır. Azərbaycan beynəlxalq birlik tərəfindən qəbul edilmiş normalar çərçivəsində özünü çox məsuliyyətlə aparır.

**O vurğulayıb ki, qoşunların təmas xəttində istənilən provokasiyalar beynəlxalq hüquqların pozulmasıdır. Ermənistanın olayın ciddiliyini tamamilə anlayacağını deyən Liberman İrəvanın özünü hüquq normaları çərçivəsində aparacağına ümid etdiyini bildirib:** “Mən çox ümid edirəm ki, beynəlxalq cəmiyyət, ATƏT-in Minsk Qrupu indiki halda obyektiv olacaq, faktlara əsaslanacaq, birtərəfli mövqe ortaya qoymayacaq”.

**Onun sözlərinə görə, beynəlxalq cəmiyyətin dəqiq mövqeyi münaqişənin həllində çox əhəmiyyətli rol oynaya bilər:** “Son hadisələr göstərdi ki, münaqişənin uzanması real faktlardan, obyektiv mövqedən uzaqlaşmağa, problemin həllinə yardımçı olmur. Biz sözsüz ki, Azərbaycan xalqını dəstəkləyirik. Azərbaycan rəhbərliyinin sərgilədiyi ədalətli mövqeni təəssüf ki, başqaları göstərmir”.

❑ **Etibar SEYİDAĞA**

# "Süpürgəçi cüzi maaşdan vergi ödəyirsə, müğənni də ödəməlidir"

## Vergilər Nazirliyi jurnalistlər üçün "Açıq qapı günü" keçirdi

**Aprelin 6-da Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində (BDV) KİV nümayəndələri üçün "Açıq qapı günü" keçirildi. Tədbirdə ölkənin aparıcı KİV-lərinin nümayəndələri, o cümlədən "Yeni Müsavat" qəzetinin müxbiri iştirak edib.**



Əvvəlcə BDV-nin yeni mərkəzinin təqdimatı oldu. Qurumun Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin rəisi Ağami Tahirov mətbuat nümayəndələrinə mərkəzin xidmət bölmələri və fəaliyyət istiqamətləri haqqında məlumat verdi. Bildirdi ki, burada vergi ödəyicilərinin qəbulu həyata keçirilir. Onlar üçün xüsusi gözləmə zalı, özünəxidmət kompüterləri, "paypoint" aparatları quraşdırılıb: "Gün ərzində 500-700 vergi ödəyicisi qəbul edilir. Əvvəlcə vergi ödəyicisi xüsusi aparatla xidmətin növünü seçib növbə götürür, sonra isə növbəsi çatdıqda xidməti masalara yaxınlaşır. Sistemi bilən vətəndaşlar isə özünə xidmət kompüterləri ilə müstəqil şəkildə əməliyyatları yerinə yetirirlər. Vergi ödənişlərini yerindəcə ödəmək üçün burada "paypoint" aparatları da quraşdırılıb".

BDV-nin yeni xidmət mərkəzi ilə tanışlığın ardından vergilər nazirinin müavini Sahib Ələkbərovun rəhbərliyi ilə mətbuat konfransı keçirildi. Konfransda vergilər nazirinin müşaviri Habil Məmmədov və Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva da iştirak edirdi.

Əvvəlcə cəbhə bölgəsində döyüşlərdə şəhid olan əsgərlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.

**Daha sonra S.Ələkbərov nazirliyin fəaliyyəti ilə bağlı son məlumatları jurnalistlərin diqqətinə çatdırdı. O bildirdi ki, bu ilin I rübündə Vergilər Nazirliyi dövlət büdcəsinin icrası ilə bağlı proqnoz tapşırığa 101,4 faiz əməl edib:** "Keçən il biz büdcəyə 7 milyard 118 milyon manat vəsait toplamışdıq. Onun yalnız təxminən 30 faizi neft sektorunun hesabına idi. Bu ilin 3 ayında qeyri-neft sektorundan daxilolmaların payı 78,5 faiz təşkil edib. Yalnız 22,5 faizi neft sektorundan daxilolmaların payına düşüb.

2016-cı il üçün parlament tərəfindən verilmiş proqnozlarda neft hesabına büdcəyə vergi daxilolmalarının 23 faiz olması müəyyənləşdirilib. Ancaq bu fərqli də ola bilər. Ötən il də fərqli proqnozlar var idi, lakin ilin yekununa görə biz neftdən təxminən 204 milyon kəsir yaşadıq, həmin çatışmazlığı isə qeyri-neft sektorundan olan ödəmələr hesabına doldura bildik. Bu il bizim birinci rüb üçün proqnozlarımız da artıqlaması ilə, 101,4 faiz yerinə yetirilib. Bu hazırkı ağır iqtisadi şəraitdə çox yaxşı göstəricidir. Biz sahibkarlarımızın daha yaxşı fəaliyyət göstərməsi üçün bir çox yoxlamalarımızı dayandırdıq. Dövriyyəsi 200 min manata qədər olan orta və kiçik sahibkarlar üçün, 3 istiqamət istisna olmaq, operativ -nəzarət tədbirlərini və yoxlamaları dayandırdıq. Ötən ilin birinci rübünə nisbətdə səyyar vergi yoxlamalarının sayı 30 faiz azaldılıb, kameral vergi yoxlamaları təxminən 60 faiz azaldılıb. Bütün bunlar onun üçündür ki, sahibkarlarımız yaxşı işləyə bilsinlər və müvəqqəti çətinlikləri dəf edə bilsinlər. Ötən ilin noyabr ayında vergilər naziri Fazil Məmmədov bir əmr imzaladı ki, Azərbaycanda vergi inzibatçılığında çox ciddi dəyişikliklər olsun. Burada həm yoxlamalara yanaşmalar, həm də vergi ödəyiciləri ilə münasibətlər yenidən qurulur. Vergi orqanlarının strukturu və kadrlar dəyişdirilir".







**Nazir müavini onu da bildirdi ki, Azərbaycan vətəndaşlarında hələ də vergi mədəniyyəti formalaşmayıb:** "Bəziləri hələ də bilmir ki, bu yığılan pullar haraya gedir. Əgər büdcədə vəsait olmasa ordu nə ilə saxlanacaq, yollar nə ilə salınacaq? Vergi ödəmələrində ən şəffaf sahə neft sahəsidir. Tikinti sahəsində vergi yayınmaları çoxdur. Şou-biznesdə yayınmalar çoxdur. Müğənni 12-14 min manata toya gedir. O niyə vergi ödəməməlidir? İl ərzində toylardan yüz minlərlə manat pul qazanan müğənni ildə 40-50 manat vergi verir. Bu ədalətli hesab oluna bilərmi? Süpürgəçi min əziyyətlə qazandığından qəpiyinə kimi vergisini verirsə, müğənni niyə minlərlə manat vəsaitindən vergi verməsin? Artıq müğənnilər ictimai qınaqdan sonra uçota dayandılar və yavaş-yavaş vergi mədəniyyətinə alışırlar".

**S.Ələkbərov nağdsız alış-verişə keçilməsinin də vergi yığımlarına müsbət təsir edəcəyini bildirdi. Qeyd etdi ki, dünyanın bir çox ölkələrində artıq nağd ödənişlərdən imtina olunub:** "Biz də nağdsız ödənişlərə keçsək, vergi ödəmələri böyük miqdarda artacaq. Ancaq bunda maraqlı olmayanlar çoxdur. Biz bu addımı inzibati yolla həyata keçirmək və qarşıdurma yaratmaq istəmirik. Bunu maarifləndirmə ilə etmək lazımdır. Dünya ölkələri arasında Azərbaycan vergi yükünə görə ən sonuncu yerdədir. Bəzi ölkələrdə vətəndaşın vergi yükü 40 faizin üzərindədir. Bizdə isə 13,3 faizdir".

Nazir müavini daha sonra jurnalistlərin suallarına cavab verib. "Yeni Müsavat"ın müxbirinin, hesabına həbs qoyulan QHT-lərin vergi yoxlamalarının nəticələri ilə bağlı sualını cavablandıran nazirlik nümayəndələri isə artıq bu yoxlamaların yekunlaşdığını və nəticələrin Baş Prokurorluğa göndərildiyini qeyd etdi. Vurğuladı ki, sonrakı qərarı Baş Prokurorluq verəcək, cinayət tərkibi varsa, həmin QHT haqqında müvafiq tədbir görüləcək.

Bu ilin ilk rübünün nəticələri ilə bağlı suala cavab olaraq bildirildi ki, aprelin 20-dən sonra açıqlanacaq. Bu nəticələrlə bağlı proqnoz da müsbətdir.

Nazirlik rəsmisi qanunvericiliyə edilən dəyişikliklərin və bəzi vergi güzəştlərinin büdcə daxilolmalarına da təsir edəcəyini açıqladı.

Bir çox müəssisələrin bağlanması ilə bağlı suallara gəlincə, S.Ələkbərov qeyd etdi ki, cari ilin yanvar-fevral aylarına görə 5337 vergi ödəyicisinin hesabı ləğv olunub. Bunlardan 123-ü hüquqi şəxs olub. 22859 vergi ödəyicisi isə qeydiyyata alınıb . Ümumilikdə tendensiya müsbətə doğrudur.

İri vergi ödəyiciləri olan dövlət qurumlarının vergi borcu ilə bağlı jurnalistlərin sualını cavablandıran nazir müavini bu problemin həllini tapdığını bildirdi. O qeyd etdi ki, son məlumata görə, ümumilikdə ölkə üzrə 1,6 milyard vergi borcu var. Onların yalnız 22 faizi dövlət mülkiyyətində olan qurumlara aiddir. Dövlət mülkiyyətində olan qurumlardan hazırda ən çox borcu olan isə "Azərsu"dur.

**Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva isə vergi qanunvericiliyinə edilən dəyişikliklərdən danışıb:** "Artıq 2016-cı ilin yanvar ayından bu yana ölkədə gedən iqtisadi islahatlarla paralel olaraq, Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Bunlar maliyyə bazarına nəzarət orqanının vergi öhdəlikləri ilə bağlı, istər investisiyaların ölkəyə daxil olması ilə bağlı vergi güzəştləridir, buğda unu və çörəyin satışının vergilərdən azad olunmasıdır, fiziki şəxslərin banklara qoyduğu əmanətlə üzrə gəlir faizlərinin və qiymətli kağızlardan əldə olunan gəlirlərin divident, dispont və digər gəlirlərin vergidən azad olunması və bir sıra azadolma və güzəştlər tətbiq olunub. Bu, ilk mərhələdə vergi daxilolmalarını azaltsa da, sonradan artmasına səbəb olacaq".

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar müəllifindir**

# Rostovdakı soydaşlarımız AZAL-dan kömək gözləyir

## "Acizanə şəkildə xahiş edirik, Bakı-Rostov-Bakı reysini bərpa edin..."




**Rusiyanın Rostov-Don şəhərində yaşayan həmvətənlərimiz adından "Yeni Müsavat" qəzeti və musavat.com-a müraciət ünvanlanıb. Müraciətdə soydaşlarımız üzləşdikləri problemin həllinə yardım istəyirlər.**

**Müraciətdə deyilir:** "Biz - Rostov-Don şəhərində yaşayan həmvətənlər problemimizə və onun həlli üçün tədbir görülməsinə diqqət ayırılmasını xahiş edirİk. Məsələ ondadır ki, artıq 5 ildir AZAL aviaşirkəti dəfələrlə Bakı-Rostov-Don-Bakı reysini bərpa edib və təxirə salıb. Hər dəfə də bu reysin bağlanması bizə böyük narahatlıqlar yaradır. Biz problemlə bağlı dəfələrlə Bakıya müraciətlər eləmiş, məktublar yazmış, imzalar toplamışıq. Ancaq nəticə olmayıb".

**Müraciətdə daha sonra deyilir:** "Diqqəti həm də ona yönəltmək istəyirik ki, Bakıdan savayı, demək olar, MDB-nin bütün ölkələrinə Rostov-Dondan birbaşa təyyarə reysi var. Bu problemə hələ də diqqət yetirilməməsi qəlbən bizə toxunur, bizə ağır gəlir. Hətta reys bərpa da olsa, çox uzun çəkmir və az sonra hansa səbəbdən ölkəmizə uçuşlar dayandırılır.

Diqqəti həmçinin ona yönəltmək istəyirik ki, ötən il yüksək səviyyədə keçirilmiş Avropa Oyunlarından sonra yerli əhali arasında Vətənimizə baş çəkmək istəyənlərin sayı hədsiz artıb. Ancaq təəssüf ki, onların heç də hamısı istəyinə çata bilmir, nədən ki, 2015-ci il sentyabrın 1-dən adıçəkilən reys bağlanıb və Bakı ilə Rostov arasında dəmir yolu əlaqəsi də kəsilib. Bakıya getmək üçün ən yaxın şəhər Mineralnıe Vodıdır, ancaq yolun uzaqlığı səbəbindən bundan da həmişə hamı istifadə eləmir.

Bir çox adamlar Azərbaycan və Rusiyada ortaq biznes qurub, əksəriyyətin Azərbaycanda ailələri, yaşlı və ya xəstə valideynləri var və s. Bütün bunlar isə daima qarşılıqlı səfər zərurəti yaradır. Axı hər həftə avtobus və avtomobillərlə yol qət eləmək olduqca uzun prosedurdur, insandan böyük zaman və əziyyət tələb edir, biznes işində fasilələrə, nəticə etibarilə ziyanlara gətirir, söhbət xəstə və ölüm ayağında olan qohumlardan gedirsə, bəzən hətta fəlakətli nəticələrə səbəb olur".

Sonda həmvətənlərimiz bir daha acizanə şəkildə xahiş edirlər ki, onların problemi diqqətdən kənarda qalmasın və adıçəkilən təyyarə reysinin bərpası yönündə lazımi tədbirlər görülsün.

Ümidi edək ki, AZAL soydaşlarımızın müraciətini cavabsız qoymayacaq.

❑ **NURLAN**

YENİ MÜSAVAT
N 73 (6394) 7 aprel 2016

**Bakıda son günlər müxtəlif strateji obyektlərin, insanların toplu halda olduqları yerlərin təhlükəsizliyi xeyli gücləndirilib. Bu hal Ermənistan tərəfinin təxribatları nəticəsində cəbhədə baş verən gərginliklər zamanı daha çox müşahidə olundu.**

# Bakıda və bölgələrdə təhlükəsizlik tədbirləri gücləndirilib

## "Ölkə boyunca əməliyyat şəraiti tam nəzarət altındadır"

Bu günlər ərzində Bakı Beynəlxalq Hava Limanında olan əməkdaşımız şahidi olub ki, burada təhlükəsizlik tədbirləri əvvəlki günlərlə müqayisədə xeyli gücləndirilib. Əməkdaşımızın müşahidələrinə görə aeroport ərazisində sahibsiz qalan çanta bir neçə saniyə ərzində təhlükəsizlik xidmətinin əməkdaşlarının diqqətini çəkir. O an çantanın sahibinin kim olduğu ətrafdakılardan soruşulur. Sahibi tapılır və ona xəbərdarıq edilir ki, çantasını yanından ayırmasın. Həmçinin aeroport ərazisində təhlükəli əşyaları, partlayıcı vasitələri aşkar etmək üçün itlərdən də istifadə edilməkdədir. Aeroporta yalnız bileti olanlar buraxılır. Ölkədən gedənləri yola salanlar hava limanının daxilinə buraxılmır.

Bundan başqa, metroda da təhlükəsizlik tədbirləri gücləndirilib. Müşahidələrimiz nəticəsində şahidi oldu ki, stansiyaların girişlərində sərnişinlərin çantaları daha diqqətlə yoxlanılır. Burada da terror törətmək istəyən şəxs öz pis niyyətlərini həyata keçirə bilməz.

Metrodan başqa bazarlarda, insanların toplu halda gəzdikləri yerlərdə polis nəfərlərinin gəzdiklərinin şahidi olduq. Onlar da asayişi ciddi şəkildə qoruyurlar.

İnsanlar arasında bütün bunlar rahatlıq yaratsa da, özümüzü güvəndə hiss etsək də, bir sual ortaya çıxır ki, Azərbaycana qarşı hansısa təhlükə mövcuddurmu?

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc bildirib ki, 2 apreldən başlayan müharibə bütövlükdə Azərbaycanın təhlükəsizlik məsələsini növbəti dəfə aktuallaşdırdı:** "Əlbəttə, düşmənin nə qədər məkrli olduğunu biz ötən on illərdə yaxşı görmüşük. Onlar qüvvələri parçalamaq, Dağlıq Qarabağı əsas zərbə hədəfindən yayındırmaq naminə bütün sərhəd boyu zonalarda hərbi həmlələrini həyata keçirməklə yanaşı, ölkənin içərilərində də müxtəlif terror planlarını reallaşdırmağı qarşıya məqsəd qoyublar. Təəssüflər olsun ki, bəzən bu məqsədlərinə çatıblar. Müxtəlif yerlərdə fərdi və ya qrup halında insanlarımızın ölümünə səbəb olublar. Yetər ki, biz metroda və digər bu kimi yerlərdə olan terror hadisələrini xatırlayaq. Onların ümumi sayı 32-yə qədərdir. Belə olan təqdirdə, xüsusilə Bakı şəhərində strateji obyektlərin qorunması çox böyük önəm daşıyır. O cümlədən hərbi nöqtələrin hər hansı ani hücumlardan qorunması da vacibdir. Müxtəlif şəkildə su hövzələri və kütləvi həyatı əhatə edən digər mənbələrin də təhlükəsizliyi böyük önəm kəsb edir. Zənn edirəm ki, bununla bağlı dövlətin bütün müvafiq strukturlarına gərəkən tapşırıqlar verilib".



**Deputat bildirib ki, müharibənin bu gün hər yerdə və hər cür üsullarla aparıla bilməsini nəzərə almalıyıq:** "Düşmən tərəfi xəbərlər yaymışdı ki, Azərbaycanın daxili şəbəkələri ermənilərin içərilərinə, Dağlıq Qarabağa, o cümlədən Ermənistanın içərisinə sızmaq üçün müxtəlif cəhdlər edirlər. Hətta cəza batalyonumuzun üzvlərini də bütövlükdə kəşfiyyat qüvvələri kimi qələmə vermişdilər. Bunun əvəzində də onlar öz növbəsində hansısa cavab addımları atacaqlarını bildirirdilər. Şübhəsiz ki, ermənilər indi ciddi bir məğlubiyyət zərbəsini aldıqlarının fərqindədirlər. Əks həmlə üçün onların ən ağılsızının da Ermənistan Prezident Administrasiyasında müxtəlif terror planları cızmaq imkanları mövcuddur. Əminəm ki, Azərbaycanın yenidən qurulmuş dövlət təhlükəsizliyi orqanları ölkə boyunca əməliyyat şəraitini və vəziyyətini nəzarət altında saxlayır. Fransa, Belçikada və ya digər yerlərdə də terror hadisələri baş verir. Dövlətlərlə bərabər terror qruplaşmaları da özlərinin imkanlarını zənginləşdirirlər. Bununla bərabər hər bir ölkə yenə də öz imkanlarını səfərbər etməyə çalışır. Əminəm ki, hər hansı bir erməni qrupunun Azərbaycan içərisində terror hadisəsi reallaşdırması mümkün olmayacaq. Xüsusilə də Bakının qorunması böyük önəm daşıyır. Ancaq eyni zamanda hər bir Azərbaycan vətəndaşı da özünün təhlükəsizliyinin qorunmasında müəyyən qədər iştirak etməlidir. Ayıq olmalı, ətrafa nəzarət etməli və digər bu kimi məsələlərdə diqqətli olmalıdır".

❑ Əli RAİS

# Bank sektoru təhlükədən çıxdımı...

## Ekspertlər bildirir ki, yalnız köklü islahatlar aparmaqla bu sahədəki problemləri çözmək mümkündür

**İlin əvvəlindən başlanan bankların bağlanması prosesi artıq səngiyib. Üstəlik, banklara cavabdeh yeni qurum- Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. Palata isə dollarla kredit verilməsini bir aylıq dayandırıb və bu, əksər ekspertlər tərəfindən normal addım kimi dəyərləndirilir. Maraqlıdır, bu ilin üç ayında bank sektoru təhlükədən çıxa bildimi? Hazırda bu sektorda hansı problemlər var? Ekspertlər məsələ ilə bağlı musavat.com-a danışıblar.**




**Ekspert Fikrət Yusifov** bildirib ki, bir-iki qərarla bank sektorunun problemlərinin həll olunacağını düşünmək sadəlövhlük olardı: "Burada söhbət Azərbaycan bank sisteminin köklü islahatlarından gedir. Yalnız belə islahatlar aparmaqla bank sisteminin bütün problemlərini həlli etmək olar. Bu gün bizdəki banklar bank kimi fəaliyyətdən çox uzaqlaşıblar. Onlar bəzən kredit almaq üçün təqdim olunmuş biznes layihələrini heç üzdən də belə araşdırmırlar. Bunun əvəzində isə girov götürmək, zamin tapmaq məsələlərinə maksimum önəm verirlər. Bu, bank fəaliyyəti deyil, sələmçilikdi. Sələmçiliklə məşğul olan banklar iqtisadiyyatın real sektorunun inkişafına heç bir töhfə verə bilməzlər. Bu səbəbdən də hesab edirəm ki, bank islahatları bütün başqa islahatlardan daha sürətlə aparılmalıdır. İlk növbədə onların nizamnamə kapitalına tələbi 10 dəfəyə qədər artırmaqla, sələmçi bankları sıradan çıxarmaq lazımdır. Azərbaycan böyüklükdə məmləkətə sahə maraqlarını da əhatə edən 4-5 çox geniş şəbəkəsi olan banklar lazımdır".

**Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində problemlər yerində qalır:** "Sadəcə, Mərkəzi Bank o problemləri ertələdi. İndi və Mərkəzi Bankın səlahiyyətləri alınıb yeni yaradılmış palataya keçirildi. Qurumun yeni təyin olunmuş rəhbəri Rüfət Aslanlının bank sektoru ilə bağlı açıqlamaları oldu. Problemlərin qaldığını, hətta bankların likvidlik problemi yaşadığını, birləşmənin sonacan çatdırılmamasını bəzi kodlaşdırılmış sözlərlə dedi. Maliyyə sektoru ilə məşğul olan insanlar nədənsə çox qəliz danışmağı xoşlayırlar. Qəliz sözlərlə, qəliz cümlələrlə də olsa, dedi. Amma "tərcüməsi" ondan ibarətdir ki, problemlər qalıb. Çox güman ki, bankların bəzilərinin bağlanması və birləşdirilməsi prosesi bundan sonra yeni yaradılmış qurumun nəzarəti altında davam edəcək. Dollar kreditlərinin bir aylıq eksperiment olaraq məhdudlaşdırılması əslində bank sektorunda hansı proseslərə təkan verə biləcəyini ölçmək üçün edilib. Çünki banklar özlərini sığortalamaq üçün ancaq dollarla kredit verməyi düşünürlər. Əhali isə krediti valyuta ilə götürmək istəmir. Və bu, istehlak kreditlərinin də sərtləşməsi ilə nəticələnir. İstehlak kreditlərinin sərtləşməsi ticarət dövriyyəsinə ciddi təsir göstərir. Pərakəndə ticarətlə məşğul olan şirkətlərin, dükanların bir çoxunda vəziyyət çox ağırdır. Bir çoxlarının bağlandığını və bağlanmaq üzrə olduğunu görürük. Şəhərdə vizual olaraq da dükanların üzərində olan elanlardan belə görmək mümkündür. Yəni bank sistemində olan problemlər həll olunmadı. Əksinə, problemlərin ört-basdır olunmasına çalışıldı və problemlər yerindəcə qalır. Və çox güman ki, yaxın zamanlarda bank sektorunda yeni yaradılmış qurumun rəhbərliyi altında müəyyən proseslərin olacağının şahidi olaq. Bu proseslər də əslində Mərkəzi Bankın başladığı proseslərin davamı olacaq. Bankların bağlanması və birləşdirilməsi prosesi olmalıdır. Çünki bank sistemində ciddi sağlamlaşma proseslərinə, əməliyyatlarına ehtiyac var. Bank sistemi çox zəifdir, həddindən artıq zəifdir. Özünün ciddi struktur problemləri var. Ciddi xarici borc problemi var. Təqribən dörd milyard dollara yaxın bankların ümumi borcu var xarici kreditorlar qarşısında. Bunun özü böyük bir problemdir. Ona görə də bank sektorunda heç bir problem həll olunmadı. Problemlər ertələndi və daha böyük problemlərin yaranmasına səbəb olacaq. Ona görə düşünürəm ki, yeni yaradılmış qurum müəyyən dərəcədə aktivliyi, təşəbbüsü öz üzərində götürüb bu sektorda müəyyən irəliləmələrə getmək məcburiyyətində qalacaq. Burada, açığı, ölkədə əhalinin bank sektoruna, milli valyutaya güvəninin kəskin şəkildə zəifləməsi fonunda çox ağrılı bir proses olacaq. Bankların kütləvi şəkildə bağlanması və yaxud birləşdirilməsi yenidən depozitlərə malik olan əhalidə müəyyən panik havasının yaranmasına səbəb ola bilər. Ona görə dövlət qurumları çox incə yanaşmalıdırlar bu məsələyə. Tez-tez insanlara doğru-dürüst məlumatlar verməlidirlər. Bununla bağlı televiziyalarda müəyyən maarifləndirici verilişlər, debatlar olmalıdır ki, əhali panik havası yaşamasın. Ən azından, ona görə ki, Əmanətlərin Sığortalanması Fondu çox zəif bir qurumdur. Bu günə qədər bağlanmış bankların əmanətlərini verib qurtara bilmir. Bundan sonra bu proses olacaqsa, hansı nəticələrə gətirəcək? Fond hansı addımları atacaq? Bunun üçün dövlət qurumları necə köməklik göstərəcəklər? Bütün bu suallara vətəndaşlarda aydın cavab olmalıdır ki, heç bir ciddi əndişə duymasınlar".

❑ RÖYA

# Müxalifət partiyalarının liderlərindən atəşkəs açıqlaması

## Partiya sədrləri Azərbaycan hökumətini çox gözləməməyə çağırdılar

**Bir çox siyasi təhlilçilər hesab edir ki, cəbhədəki vəziyyəti prezident və müdafiə nazirindən yaxşı bilən yoxdur. Ona görə də əgər prezident atəşkəsə razılaşıbsa, həm cəbhədəki vəziyyətə, həm də gedən diplomatik danışıqlara görə qərar verib. Hələlik nə əldə etmişiksə həmin yerlərdə müdafiə sistemlərini gücləndirmək lazımdır.**

Bəs Azərbaycanın siyasi müxalifəti atəşkəs razılaşmasına necə yanaşır?

Aprelin 2-də Füzuli rayonu ərazisindəki **Lələtəpə yüksəkliyinin azad edilməsi uğrunda döyüşlərdə şəhid olan mayor Rasim Məmmədovun əmisi, ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, verdiyimiz şəhidlərin, ordumuzun qəhrəmanlığı Azərbaycanın mövqeyini gücləndiribsə və işğalçı Ermənistan güzəştli mövqeyə keçirsə, nəticədə Qarabağ problemi ədalətli həllini tapırsa, atəşkəs elan olunması düzgündür: "Çünki belə halda gənclərin ölməsinə, daha böyük dağıntılara gedilməsi yanlış olardı. Yox, əgər Ermənistan əvvəlki dikbaşlığında, işğalçı mövqeyində qalacaqsa, o zaman atəşkəs rejimini saxlamağın heç bir mənası yoxdur. Azərbaycan öz torpaqlarını tam azad edənə qədər hərbi əməliyyatları həyata keçirməlidir. Artıq xalqda heç vaxt görünməmiş səviyyədə ruh yüksəkliyi var. Mən qardaşım oğlu Rasimin cənazəsinin qarşılanması və dəfnində gördüm ki, on minlərlə gənc oğlan, hətta qızlar vuruşmağa, torpaqlarımızı azad etmək yolunda şəhid olmağa hazırdır. Minlərlə gənc şəhidin məzarı qarşısında buna and içirdi. Azərbaycan xalqında təsəvvür edilməyəcək dərəcədə ruh yüksəkliyi, müharibədə ən vacib amil olan psixoloji üstünlük yaranıb. Təsəvvür edin ki, bütün günü əhali heç biz olmadan belə, Rasimin məzarını ziyarətə gedir. Digər şəhidlərimizə də bu cür münasibət var. Bu, həm də ruh yüksəkliyinin, qələbə istəyinin ortaya qoyulmasıdır. Belə əhval-ruhiyyədə dövlət istənilən hərbi əməliyyatı apara və qalib gələr. Artıq xalq tam şəkildə ordunun arxasındadır. Ordumuz isə böyük psixoloji üstünlük əldə edib. Müharibədə bunlar həlledici məqamlardandır. Xalqda və orduda olan bu ruh yüksəkliyinin düşməsinə, xəyal qırıqlığı yaşanmasına qətiyyən yol verməmək olmaz, buna yol vermək dövlətimiz üçün çox böyük zərbə olar, şəhidlərimizin qanı batmış hesab olunar".


Sərdar Cəlaloğlu


Arif Hacılı


Əli Əliyev

**S.Cəlaloğlu bəyan edib ki, Ermənistan dərs götürübsə, ağlı başına gəlibsə, Rusiyanın əlində maşa olub özünü fəlakətlə üz-üzə qoymaq istəmirsə, təcili olaraq Azərbaycan torpaqlarının azad edilməsinə razılaşmalıdır. Yalnız belə olacağı halda Azərbaycan hökuməti atəşkəs mövqeyində qalmalıdır. Əks halda, bu məsələni uzatmaq qətiyyən olmaz. Hərbi əməliyyatları başlayıb hətta tarixi torpaqlarımız olan Göyçə və Zəngəzurun da azad edilməsinə qədər gedilməlidir:** "İndiki halda Azərbaycan hökuməti elan etməlidir ki, atəşkəsə onun üçün razılıq vermişik ki, qısa müddətdə Ermənistan ordusu torpaqlarımızdan çıxsın. Buna vaxt vermişik. Qısa vaxtda ermənilər çıxmasalar, hərbi əməliyyatlar başlayacaq və sonadək gediləcək. Azərbaycan hakimiyyəti qətiyyən xalqımızdan, ordumuzdan narahat olmamalıdır. Mənim hazırda bacımın bir oğlu zabitdir, iki bacım nəvələri zabitdirlər, qardaşımın bir oğlu əsgərdir. Hamısı ön cəbhədədir. Biz bir ailə, nəsil olaraq yenə də şəhid verməyə hazırıq. Təki torpaqlarımız azad olunsun. Bax, bu, bir zabit şəhid vermiş ailənin, nəslin mövqeyidir. Bütün xalq bunu istəyir".

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə bildirdi ki, bu məsələlər barədə məlumatları yalnız televiziyaların verdiyi, ayrı-ayrı adamların sosial şəbəkədə yazdığı informasiyalar əsasındadır:** "Ona görə də mən baş verənlərə qiymət verməyə tələsmək istəmirəm. Hər halda, bir neçə gün ərzində baş verən proseslər göstərdi ki, Azərbaycan xalqı Qarabağ uğrunda mübarizəyə qalxmağa və Qarabağın işğaldan azad olunması üçün şəhid olmağa qədər hər cür fədakarlığa hazırdır. Bunun özü bir ciddi göstəricidir. Ancaq konkret olaraq hərbi əməliyyatların nəticələri və bu nəticələrin Azərbaycan üçün uğurlu olub-olmaması barədə dəqiq fikir səsləndirmək hələ tezdir. Bizim ərazilərimiz işğal altındadır və istənilən halda torpaqlarımızın azad olunması istiqamətində addımlar atmalıyıq. Bu baxımdan, erməni silahlı birləşmələrinin bizim mövqelərimizə hücum edib-etməməsindən asılı olmayaraq biz Azərbaycan üçün zəruri olan siyasi, hərbi şəraitdə düzgün olan addımları ataraq torpaqlarımızın işğaldan azad olunmasına çalışmalıyıq. Azərbaycanın heç kəsə izahat vermə zərurəti yoxdur. Hətta Ermənistan tərəfi bizə atəş açmasa da belə, beynəlxalq hüquq normalarına və ölkəmizin qanunlarına görə Qarabağın işğaldan azad edilməsi üçün gərəkən addımları atmaq Azərbaycanın haqqıdır".

**VİP sədri Əli Əliyev dedi ki, atəşkəs qərarının pərdəarxasını bilmədiyimizdən məsələyə münasibətdə ehtiyatlı davranmaq gərəkdir:** "Bu mərhələ yüksək qiymətləndirilməlidir. Çünki təmas xəttindəki status-kvo tam dəyişib. Deməli, Madrid prinsiplərinə və bütövlükdə danışıqlardakı detallara yenidən baxmaq üçün zəmin formalaşıb. Ordumuzun hazırlığı, faktor kimi hamıya görünüb, cəmiyyət, onun bütün seqmentlərinin bu günlərdə nümayiş etdirdiyi həmrəylik danışıqlarda ciddi arqumentə çevrilib, hərəkətlərimizə göstərilən beynəlxalq münasibət, üstünlüyümüzün əlavə bir şərti ola bilər. Qəbul olunmuş qərarlar dünya siyasi gündəliyini dəyişməyə şərait yaradıb. Xalqımızın əsas problemi yenidən gündəmə gətirilməklə, həllinə şans yaranıb. Düşmən səngərində yaranmış panik vəziyyətin də diplomatlarımızın masada əlini gücləndirən amil olacağı şübhə doğurmur. 2-5 aprel tarixində keçilən yolun hərb və dövlətçilik tariximizin mühüm səhifəsi olmasını istəyirəm. Döyüş meydanında qanımız hesabına əldə edilmiş bu üstünlüklərin gələcəkdə torpaqlarımızın işğaldan azad olunmasına, düşməndən sona qədər qisas almağımız üçün zəmin olmasını Allahdan diləyirəm".

❑ Etìbar SEYİDAĞA

# Qarabağ ermənilərinə terrorçu rejimdən xilas çağırışı

## Zahid Oruc: "Azərbaycanın Qarabağı azad etməsi sadə erməni vətəndaşının milli varlığına heç bir təhlükə törətmir"

**Aprelin ilk beş günündə Qarabağ cəbhəsində baş verən toqquşmalardan ən çox zərər çəkən Qarabağdakı terrorçu qruplaşmaların əlində on illərdir girov vəziyyətində yaşayan ermənilər oldu. İyirmi ildən çoxdur ki, cinayətkar Ermənistan hakimiyyətinin və Dağlıq Qarabağda özünü "hakimiyyət" elan etmiş qanunsuz silahlı birləşmələrin basqısı altında qalan dinc sakinlərin böyük bir hissəsi öz evlərindən qaçmağa vadar oldular.**

Onsuz da imkanı olan ermənilər mövcud vəziyyətə dözməyərək bu əraziləri tərk edirdi. Sonuncu hadisələr zamanı isə hətta mülki sakinlərin Ermənistana qaçmasının qarşısını almaq üçün cinayətkar rejim silaha belə əl atmışdı. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistan bölməsi isə Dağlıq Qarabağa yardımlar ayırmağa başlayıb. Ermənistan KİV-i xəbər verir ki, beynəlxalq humanitar təşkilatın İrəvan bölməsinin rəhbəri Zara Amatuni Dağlıq Qarabağdan 3 min erməninin qaçdığını deyib.

Azərbaycan isə ən yüksək səviyyədə dinc ermənilərə qarşı hər hansı sərt addım atmayacağını növbəti dəfə bəyan edib. Belə bir situasiya erməniləri düşünməyə vadar edir. Azərbaycan vətəndaşı olan Qarabağdakı ermənilərin yeganə xilas yolu təslim olmaqdır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, onların təhlükəsizliyinə qarantiya verir.

"Ermənilərə göstərməliyik ki, Azərbaycanın tərkibində qalmaqla yüksək yaşayış tərzinə və misli görünməmiş bir inkişafa nail ola bilərlər. Bu, indiki məqamda ən vacib situasiyadır". Bunu isə **sabiq dövlət müşaviri Qabil Hüseynli** Azərbaycan və Ermənistanın əməliyyatları dayandırması fonunda Dağlıq Qarabağla bağlı həll prosesini axar.az-a dəyərləndirərkən deyib.

**Politoloq daha sonra deyib:** "Ərazi bütövlüyümüzə hörmət göstərilir, Azərbaycan Dağlıq Qarabağa yüksək səviyyədə muxtariyyət verir, bu hüquqlar içərisində Dağlıq Qarabağ özünü idarə edərək hətta büdcəsini təşkil etsə belə, Azərbaycanın imkanları böyük olduğundan, rəsmi Bakıdan dotasiya almaq hüququna malik olur. Ermənilər bilməlidirlər ki, Azərbaycanın tərkibində yüksək yaşayış tərzinə qovuşa bilərlər. Rəsmi Bakı onların muxtariyyət səlahiyyətlərinə toxunulmayacağı və burada özünüidarəetmənin verdiyi bütün imkanlardan istifadə edəcəkləri vədlərini verə bilər".


Zahid Oruc

**Deputat, Milli Məclisin Təhlükəsizlik, Müdafiə və Korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc isə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan vətəndaşlığı olan ermənilər də cinayətkar rejimin girovluğundadır:** "Qarabağ hərəkatını başladan milyonlarla insanın faciəsinə səbəb olanlar indi Ermənistanda hakimiyyətdədir. Onlar hərbi mundirlərini prezidentlik libasları ilə əvəzləyərək iqtidara gəliblər. Lakin tarixdə hər zaman bir mistik təkrar olunma təcrübəsi var - ancaq əks işarə ilə. Aprelin 2-si Kəlbəcərin ələ keçirilməsi ilə köçəryanlar, yaxud sərkisyanlar xalqın nəzərində qəhrəmana çevrilmişdilərsə, indi vəziyyət tamamilə dəyişib. Müharibədən qazanan liderlərin parıltısı və gözqamaşdıran dəbdəbəsi fonunda millət müflisləşib, Qarabağ əhalisi miskinləşib və yazıq vəziyyətinə düşüb. 4 günlük müharibənin gün üzünə çıxardığı ən mühüm məsələlərdən bir də budur".

**Z.Orucun fikrincə, indi erməni prezident əvvəlki mundirinə qayıdıb təzədən komandir olmaq istəsə də əksəriyyət daha ona inanmır və öz faciəvi yaşayışlarının əsas səbəbkarı sayırlar:** "Azərbaycan son uğurlu hərbi əməliyyatları təkcə bir neçə yüksəkliyin ələ keçirilməsi ilə məhdudlaşmır, həm də silahı erməni əsgərinin başının arxasına dirəyib onlara əvvəlki mövqeləri almağı əmr edən rəhbərlərlə Qarabağ əhalisi arasında münaqişənin dərinləşməsi də çox əhəmiyyətli nəticələr sırasındadır. Senzura altında erməni mediasının bütün cəhdlərinə baxmayaraq, itkilər və son məğlubiyyətin gerçək təfərrüatları cəmiyyətə bəlli olduqca, istər İrəvanda, istərsə də Xankəndində sosial-siyasi böhran dərinləşəcək. Bax, onda Sərksiyanın hakimiyyətdə qalması qeyri-mümkün olacaq. Azərbaycanın Qarabağı azad etməsi sadə erməni vətəndaşının milli varlığına heç bir təhlükə törətmədiyindən ölkə prezidenti onlara Təhlükəsilik Şurasının son iclasında müraciət etdi".

**Deputat silahlıların da çıxış yolunun olduğunu bildirdi:** ""Əfv dəhlizi" açıqdır və kimlərsə silahı atıb Azərbaycan qanunlarını tanıyaraq girovluqdan azad olmaq istəyirsə, dövlətimiz onlara bu zəmanəti verə bilər. Onsuz da əsgərlərimizin açdığı atəşin başlıca hədəfi səngərdəki silahlı ermənidir, hansı ki, arxasında xalqın yaşamadığı bir daha sübuta yetirildi. Bununla belə, bizim hamını qılıncdan keçirib "ermənisiz Azərbaycan" qurmaq kimi bir niyyətimiz yoxdur. Lakin müharibə istəyən onu alacaq və əfv diləyən erməni əllərini yuxarı qaldırmalıdır ki, onun təhlükəsiliyi təmin olunsun".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 73 (6394) 7 aprel 2016

# Birinci rübdə gömrük hüquqpozmaları üzrə 61 cinayət işi başlanıb

**Bu ilin birinci rübündə Dövlət Gömrük Komitəsinin (DGK) İstintaq İdarəsinin icraatında olan materiallar əsasında 61 cinayət işi başlanıb.**

Komitənin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, bundan 52 cinayət işinin icraatı başa çatdırılıb ki, həmin işlərdən də 63 şəxs barəsində 47 cinayət işi ittiham aktı ilə baxılması üçün məhkəmələrə göndərilib, 5 cinayət işinin icraatına isə xitam verilib.

Həmin müddət ərzində cinayət işləri üzrə 36 min 867,21 manat vurulmuş ziyan və cinayət işinin başlanılması rədd edilmiş materiallar üzrə 101 min 868,55 manat gömrük ödənişləri ödətdirilib.

Eyni zamanda cinayət işləri üzrə 21 mln. 750 min Rusiya rublu, 4702 manat dəyərində 180,6 qram qızıl-zinət əşyaları və cinayət işinin başlanılması rədd edilmiş materiallar üzrə 41 min 600 ABŞ dolları, 18 min 103 manat, 10 min 746 manat dəyərində is



ə 163 ədəd mobil telefon dövlət mülkiyyətinə keçirilib.

Bundan başqa, 2016-cı ilin birinci rübündə İstintaq İdarəsinin icraatında olmuş cinayət işləri üzrə 30 min 728,32 manat məbləğində mülki iddia qanuni qüvvəyə minmiş məhkəmə qərarları əsasında ödətdirilib.

Hazırda İstintaq İdarəsinin icraatında olan 83 cinayət işi üzrə istintaq davam etdirilir.



## "28 Mall"da bomba olması barədə yalan məlumat verən tutuldu

**"28 Mall" ticarət mərkəzinə bomba qoyması barədə yalan məlumat verən şəxs tutulub. Musavat.com xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi saytı məlumat yayıb.**

Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 4-də Azadlıq prospektində yerləşən "28 Mall" ticarət mərkəzindəki "Bazarstore" mağazasına bomba qoyulması barədə məlumat verən Ağdaş rayon sakini, 33 yaşlı Rəvan Fətəliyev tutulub.

Faktla əlaqədar cinayət işi başlanıb.

## Bakı sakinindən tapança götürülüb



**Bakıda silahlı şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Səbayel Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini İntizam Məmmədovdan "TT" markalı tapança və 3 ədəd patron götürülüb.**

## Azərbaycanda intiharların statistikası açıqlanıb

**"Ötən illərlə müqayisədə keçən il Azərbaycanda intihar halları cüzi də olsa artıb. Belə ki, 2013-cü ildə bu göstərici 415 idisə, 2015-ci ildə 535 nəfər olub. Təbii ki, statistikadan kənar qalan faktlar da olur".**

"Report"un məlumatına görə, bunu Səhiyyə Nazirliyinin Respublika Psixi Sağlamlıq Mərkəzinin Təcili Psixoloji yardım şöbəsinin müdiri Kəmalə Talıbova mərkəzdə keçirilən dəyirmi masada çıxışı zamanı deyib.

Uşaqlar arasında intihar hallarının statistik göstəricilərinə toxunan şöbə müdiri əlavə edib ki, 2013-cü ildə bu rəqəm 18 idisə, keçən il bu say 29 olub.

K.Turabova onu da qeyd edib ki, intihara cəhd halları qadınlar arasında üstünlük təşkil etsə də, bu, kişilər arasında tamamlanmış intihar hallarının iki dəfə daha çox olması deməkdir.

Gələcəkdə mərkəzin nəzdində susidioloji mərkəzin yaradılmasının nəzərdə tutulduğunu əlavə edən şöbə müdiri deyib ki, burada intihar cəhd halları və səbəbləri araşdırılacaq.

"Danılmaz faktdır ki, bu gün Azərbaycanda intiharlarla bağlı problemlər yaşanır. İntihar hallarına bütün yaş qruplarında rast gəlinsə də, əsas yaş həddi 18-35-dir. Təbii ki, səbəblər də müxtəlifdir. Bura psixoloji, sosioloji, bioloji, ailə-məişət faktorları, insanlarda ruh keçidinin, genetik problemlərin olması aiddir", - o vurğulayıb.

## 3 nəfərin ölümünə səbəb olan sürücü həbs edildi

**Azərbaycanda ötən il 3 nəfərin ölümünə səbəb olan sürücü həbs edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, İmişli Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il dekabrın 25-də rayon ərazisində 3 nəfərin ölməsi ilə nəticələnən yol-nəqliyyat hadisəsini törədən Elçin Kərimov tutulub.**

## Daşkəsən sakinini ayı yaralayıb

**Daşkəsən rayon sakini ayının hücumuna məruz qalıb. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Çıraqlı kənd sakini, 1984-cü il təvəllüdlü Elbrus Bayramov ayaq nahiyəsindən ayı dişləməsi xəsarəti ilə Gəncə Şəhər Təcili Tibbi Yardım xəstəxanasına yerləşdirilib.**

Ona dərhal tibbi yardım göstərilib və quduzluq əleyhinə peyvənd vurulması üçün Daşkəsən rayon Mərkəzi xəstəxanasına göndərilib. E. Bayramov bildirib ki, son günlər təmas xəttində atəş səslərindən hürkən vəhşi heyvanlar kəndlərə doğru hərəkət edirlər. O, bu gün əkin sahəsində işləyən zaman ayının ona hücum etdiyini və yaraladığını bildirib.

Qeyd edək ki, Çıraqlı kəndi də Murov dağının ətəyində yerləşir və qoşunların təmas xəttinə yaxındır.

## Bu gün havanın temperaturu 22 dərəcəyə yüksələcək

**Aprelin 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-8, gündüz 13-18, Bakıda gecə 6-8, gündüz 16-18 dərəcə isti olacaq.**

Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9, gündüz 17-22, dağlarda gecə 0-5, gündüz 10-15 dərəcə isti olacaq.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**










# Siqaret tüstüsündə boğulan şəhər...

## Deputat: "Bizi zəhərləyənləri çərçivəyə almağı bacarmalıyıq..."

**Ölkəmizdə istənilən kafe və restoranlarda, avtobus dayanacaqlarında, bir sözlə, insanların sıx olduğu ictimai yerlərdə siqaret çəkilir. Bu da siqaret çəkənlərin siqaret çəkməyən insanları zəhərləməsi deməkdir. Hətta ictimai nəqliyyatda belə sürücülərin siqaret çəkdiyinin şahidi olmuşuq.**

İctimai yerlərdə siqaret çəkilməsinin qadağan edilməsi ilə bağlı Milli Məclisdə uzun illərdir müzakirələr aparılsa da, qanun layihəsi qəbul olunmayıb. Buna baxmayaraq, "Tütün və tütün məmulatı haqqında" Qanunun 21-ci maddəsinə əsasən, Azərbaycanda tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində, yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində siqaret çəkmək qadağandır.

İnzibati Xətalar Məcəlləsində qeyd edilir ki, hava nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə yüz manat miqdarında cərimə, dəmiryol nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə xəbərdarlıq və ya 5 manatdan 15 manatadək miqdarda cərimə, metropoliten stansiyalarının vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda siqaret çəkməyə görə 50 manat miqdarında cərimə, dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə siqaret çəkilməsinə görə xəbərdarlıq və ya 7 manatdan 13 manatadək miqdarda cərimə, müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkilməsinə görə 40 manatdan 50 manatadək cərimə müəyyən edilib.

Ancaq paytaxtda apardığımız müşahidələr bu qaydalara əməl etməyənlərin kifayət qədər olduğunu deməyə əsas verir. Belə ki, hansısa kafedə və ya restoranda siqaret çəkmək qadağandır nişanəsi olsa da, içəridə siqaret tüstüsündən göz gözü görmürdü. Hətta uşaq əyləncə mərkəzlərində belə siqaret çəkilir.

Qeyd edək ki, bir çox ölkələrdə siqaret çəkənlər üçün küçələrdə xüsusi otaqlar fəaliyyət göstərir. Bu otaqlardan başqa heç yerdə siqaret çəkməyə icazə verilmir. Son 10 ildə ABŞ-da qapalı məkanlarda siqaretin qarşısını almağa xeyli nail olublar. Qonşu Gürcüstanda isə uşaq bağçaları və orta məktəblərdə siqaret çəkmək qanunla qadağan edilib. Siqaretlə mübarizədə Türkiyə modeli isə örnək kimi götürülə bilər. Belə ki, 8 il aparılan monitorinqdən sonra bütün qapalı mühitdə siqaret çəkilməsinə qadağa qoyulub.

Siqaret tüstüsündə təxminən 4000-ə yaxın kimyəvi maddə var ki, onların da 50-yə qədərinin xərçəng xəstəliyi törətməsi sübuta yetirilib. Siqaret çəkilən istənilən yerdə tütünün tərkibindəki zəhərli maddələr qalır və uşağınızın orqanizminə nüfuz edir. Hamilə qadının siqaret tüstüsünə məruz qalması vaxtından əvvəl doğuş, doğulmuş uşağın çəkisinin az olması, qəfil uşaq ölümü sindromu, zəka problemləri, diqqət çatışmazlığı və hiperaktivliyə səbəb ola bilir.

**Maraqlıdır, bu qədər zərərli olduğu bilindiyi halda digər dövlətlərdə olduğu kimi Azərbaycanda da ictimai yerlərdə siqaret çəkilməsi niyə qadağan edilmir? Deputat Zahid Oruc bununla bağlı Milli Məclisdə dəfələrlə müzakirələr aparıldığını dedi:** "Azərbaycanda siqaret çəkənlərin cəmiyyətdən təcrid olunmasının tərəfdarlarından biriyəm. Belə hesab edirəm ki, ekologiyanı çirkləndirənlərin sırasında qeyd etdiyimiz kateqoriyalı insanlar mühüm yer tuturlar. Bu mənada biz başqa ölkələrin praktikasını ölkəmizə gətirməliyik və qanunvericilik qaydasında bu məsələni sanksiyalaşdırmaq lazımdır. Yəni həqiqətən də bizi zəhərləyənləri çərçivəyə almağı bacarmalıyıq. Mən bir çox ölkələrdə olmuşam. Bu ölkələrdə "özünüzü zəhərləyin" deyə ictimai iaşə yerlərində, xüsusi yerlərin hamısında ayrıca otaqlar yaradılıb. Görünür, bizdə siqaret istehsalçılarının təsir gücü güclüdür ki, biz onlara mane ola bilmirik. Onlar cəmiyyəti özlərinin inhisarında saxlayır. Tütün şirkətlərinin təbliğat, təsir, insanları özlərinin zəhərlənmə zonalarında saxlamaq imkanları, görünür ki, daha böyükdür. Amma cəmiyyətin də onlara dirəniş imkanları var. Sadəcə olaraq, hamı bunu qəbul etməlidir ki, həqiqətən də bu ziyanlı bir şeydir. Kimyəvi reaktiv silahlar, radiasiyalar bir anın içində təsir edirsə, bu, zaman-zaman, damla-damla öldürür. Ona görə də bu yöndə qanunun qəbul olunması təklifləri parlamentdə də səsləndirilib. Ancaq görünür ki, bu işi siqaret çəkməyənlərin lobbi işinə çevirmək lazımdır ki, nəhayətdə qanunvericilik qaydasında bu norma işə düşsün".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, ötən əsrdə 100 milyon insan bu zərərli vərdişin qurbanı olub. Dünyada ən çox siqaretdən istifadə olunan ölkələr arasında Çin, Hindistan, İndoneziya, Braziliya, Banqladeş, Almaniya və Türkiyənin adı çəkilir. Dünya üzrə hər 5 saniyədə 1 nəfər siqaretdən yaranan xəstəlikdən ölür.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Sabiq müstəntiq dələduzluqla bağlı sorğu-sual olundu

## Baş Prokurorluq: "Rövşən Əhmədov tutduğu vəzifədən uzaqlaşdırılıb"

**Göygöl Rayon Prokurorlugunun sabiq müstəntiqi Rövşən Əhmədov dələduzluq faktına görə başlanmış cinayət işi üzrə dindirilib. "Yeni Müsavat"a daxil olan məlumata görə, R.Əhmədovdan bir neçə şikayətçi var. O, tutduğu vəzifədən ayrı-ayrı vətəndaşların ondan hüquq-mühafizə orqanlarına şikayətindən sonra uzaqlaşdırılıb.**




Belə ki, Baş Prokurorluğa şikayət edən vətəndaşlar bildiriblər ki, R.Əhmədov onlardan külli miqdarda pul alıb. Bundan sonra müstəntiq baş prokuror Zakir Qaralovun əmri ilə sərəncama göndərilib. Fakt üzrə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb. Sabiq müstəntiq moderator.az-a bu barədə danışmaqdan imtina edib.

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Baş Prokurorluğa sorğu ilə müraciət edib. "Rövşən Əhmədov tutduğu vəzifədən uzaqlaşdırılıb. Dələduzluq faktına görə cinayət işi başlayıb. Rövşən Əhmədov şahid qismində dindirilib" - deyə sorğumuzu cavab olaraq bildilib. Qeyd olunub ki, Rövşən Əhmədova hər hansı ittiham irəli sürülməyib. Hazırda istintaq davam etdirilir.

Xatırladaq ki, Rövşən Əhmədovun adı bir il əvvəl Göygöldə qətlə yetirilən "qara kəmər" ustası Kamal Rüstəmovun qanını batırmaqda hallanıb. Belə ki, müstəntiqin icraatında olan cinayət işinin qeyri-obyektiv aparılması nəticəsində idmançı gənci qətlə yetirən cinayətkar dəstənin iştirakçıları məsuliyyətdən kənarda qalıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Belarus AZAL-ın qarşısında şərt qoyub

**Belarus bu ölkəyə uçuşların yerinə yetirilməsi ilə bağlı "Azərbaycan Hava Yolları" QSC (AZAL) qarşısında şərt qoyub. "APA-Economics" xəbər verir ki, bunu jurnalistlərə AZAL-ın vitse-prezidenti Arif Məmmədov deyib.**


Arif Məmmədov

Onun sözlərinə görə, Belarusun müvafiq dövlət qurumu hesab edir ki, AZAL-ın təklif etdiyi tariflər olduqca aşağıdır: "Bu gün Belarusun aidiyyəti qurumundan bizə məktub gəlib. Məktubda bildirilir ki, aprelin 15-dən AZAL ora uçuşları dayandırmalıdır. Buna səbəb bizim təklif etdiyimiz tariflərin aşağı olmasıdır. Belarus tərəfi bizə deyir ki, Azərbaycan bileti çox ucuz satır. Tələb edirlər ki, əvvəl qiymətləri onlarla razılaşdıraq, rəqabət apardığımız şirkətə problem yaratmayaq. Halbuki biz qiymətləri aşağı salmaq istəyirdik. Bununla bağlı hər iki ölkənin müvafiq strukturları arasında danışıqlar aparılacaq. Bizim qarşımızda qiymətin artırılması ilə bağlı tələb qoyulub. Yəqin ki, kompromisə gediləcək".

YENİ MÜSAVAT

Son səhifə

N 73 (6394) 7 aprel 2016


# Nişanlısına şarlardan gəlinlik paltarı hazırladı

Çinin Sindao şəhər sakini nişanlısı üçün 600 şardan ibarət gəlinlik paltarı hazırlayıb. Bəylə birlikdə "şarlı gəlinlik" geyinən qız da şəhərin küçələrində fotosessiya etdirib. 25 yaşlı toy təşkilatçısı Lu Kepenq bir gecəlik paltarlar hazırlamaqla şöhrət qazanıb. Şardan hazırlanan gəlinlik onun ən məşhur əl işidir. Gənc oğlanın sözlərinə görə, o, bu hərəkəti ilə nişanlısı Su Syuenoya onu necə güclü sevdiyini göstərmək istəyib.



2015-ci ilin sentyabrında Mode kanalı özünə məxsus Youtube kanalında gəlinlik paltarlarının bir əsrlik "inqilabı" barədə süjet yayımlayıb. Həmin süjetə 260 min dəfə baxılıb. Stilist komandasının hazırladığı klipdə 1915-ci ildən 2015-ci ilə qədər toy dəbindəki dəyişikliklər öz əksini tapıb.



## 55 yaşında üçəm uşaq doğdu

Böyük Britaniyanın Linkolnşir qraflığında yaşayan 55 yaşlı qadın üçəm dünyaya gətirib. O, bununla da ölkənin ən yaşlı üçəm anası ünvanını qazanıb. Britaniyalı süni mayalanma və əməliyyat üçün 21 min dollar xərcləyib. Şeron Kats adlı qadın bu əməliyyat üçün Kiprə gəlib. Çünki onun ölkəsində bu əməliyyatı 42 yaşına qədər qadınlara edirlər. Həkimlər bu olaydan narahat olaraq, qadına üç döldən birini abort etdirib, digərlərinə yaşam şansı verməyi təklif etsələr də, sonuncu bunu qəbul etməyib. Qadının 4 uşağı və 3 nəvəsi var. Linkolnşir sakini qeysəriyyə əməliyyatı nəticəsində üçəm anası olub. Kats deyib ki, uşaqları onu yaxşı görüntüdə görsün deyə doğumdan əvvəl üzünə botoks etdirib. 55 yaşlı qadın evli deyil, 40 yaşlı Stuard Reynoldsla görüşür.



## Mühacir uşağı 8 universitetə qəbul oldu

Amerikalı Auqust Uvamanzu- Nna eyni vaxtda 8 universitetdə ali təhsil almağa haqq qazanıb. 17 yaşlı qız Nigeriyadan gələn miqrantın qızıdır. Məktəbi bitirəndən sonra Auqusta sənədlərini bir neçə ixtisas üzrə verib. Ona Braun, Kolumbiya, Kornel, Pensilvaniya universitetindən müsbət cavab gəlib. Məzunu eyni zamanda Prinston, Yöll, Harvard və Darmut kollecindən dəvət ediblər. Qız hələ harada oxuyacağı ilə bağlı qərar qəbul etməyib. "Bu universitetlərdən hər hansı birində oxumaq mənim üçün böyük şərəf olacaq" deyən gənc qızın sözlərinə görə, valideynləri ona hər zaman məktəbdə dayanmadan, əzmlə oxumağı tapşırıblar. Hətta orta təhsilini bitirəndən sonra amerikalı "Intel Science Talent Search" adlı istedadlar yarışında finala çıxıb. Bundan başqa, 2016-cı ildə Ağ Evdə keçirilən elmi nailiyyətlərlə bağlı sərgiyə də dəvət qazanıb.

# İt pəncəsini itirdi, "qəhrəmanlığa görə" mükafatını aldı

Lukka ləqəbli çoban iti Əfqanıstan və İraqda gedən döyüşlər zamanı pəncəsini itirdiyi üçün "Mariya Dikin" mükafatı ilə təltif olunub. Bu isə Böyük Britaniyada heyvanlar üçün ən ali mükafat hesab edilir. Medalın təqdimetmə mərasimi Londonda keçirilib. 12 yaşlı it tədbirə öz sahibi, serjant Kris Uillinqlə qatlıb.

Çoban iti 6 il boyunca ABŞ-dakı hərbi dəniz gəmisində qulluq edib. 2012-ci ildə Əfqanıstandakı bombanı aşkar edən zaman pəncəsini itirib. Bundan sonra it təqaüdə göndərilib.

Sahibi deyib ki, hazırda it də, özü də Kaliforniyada yaşayırlar. Lukka 1943-cü ildə təsis olunmuş mükafatı alanlardan 67-cisi olub. Gümüşdən hazırlanan mükafatın üzərində "Qəhrəmanlığa görə", "Biz də qulluq edirik" sözləri yazılıb. Mükafatı bir qayda olaraq London meri təqdim edir. Müxtəlif illərdə onu itlər, pişiklər, atlar və göyərçinlər əldə edib.





## Özünü əjdahaya oxşatmaq üçün qulağını kəsdi, burnunu kiçiltdi

Amerikanın Arizona ştatı sakini Eva Tiamat Meduza cinsini dəyişdirməyə hazırlaşan ərəfədə əcaib hərəkət edib. "Daily Mail" qəzetinin xəbərinə görə, 55 yaşlı Meduza özünü əjdahaya oxşatmaq üçün qulağını kəsib, burnunun formasını da dəyişdirib. 2012-ci ildə o, bir neçə ağrılı kosmetik əməliyyat keçirib. Bunların siyahısına üzün tatuirovkası, alında metallik implant əməliyyatı daxildir. Eləcə də keçmiş bank işçisi gözlərinin altını yaşıl rəngə boyayıb, sinəsinə və əlinə şəkillər çəkib.

Yaxın günlərdə bu əcaib kişi öz cinsiyyətini dəyişməyi planlaşdırır. Meduza kişi cinsiyyət orqanlarından qurtulacaq. Artıq sinəsinin böyüməsi üçün hormonal dərmanlar qəbul etməyə başlayıb. Arizona sakininin dediyinə görə, o, daim müxtəlif tatu şoulara baş çəkir, bədəninə yeni tatular vurdurmaqla mistik varlıqlara bənzəməyə çalışır.




**QOÇ** - Astroloji göstəricilər qətiyyən darıxmayacağınızdan xəbər verir. Çünki sevdiyiniz insanların əksəriyyəti ətrafınızda olacaq. Keçmişdə olan xoşagəlməzlikləri tez-tez xatırlamayın.

**BUĞA** - Ulduzların düzülüşü yalnız ailə üzvlərinizlə rahatlıq tapacağınızı bəyan edir. Digər ünvanlarda, ələlxüsus da həmkarlarınızla davranışlarda hər şey tərsinə cərəyan edə bilər.

**ƏKİZLƏR** - Perspektivlərinizi reallaşdırmaq üçün müəyyən xərcə düşməkdən qorxmayın. Çünki bu barədə düşündükləriniz gerçəkləşsə, özünüzü xoşbəxt sanacaqsınız. Ümidli olun.

**XƏRÇƏNG** - Qarşılaşdığınız hər bir hadisəyə soyuq başla yanaşın. Çünki hər hansı emosional reaksiyanız bütün planları poza bilər. Bu gün enerjiniz bol olduğundan heç nədən çəkinməyin.

**ŞİR** - Yaxşı olar ki, son bir həftədə yığdığınız yorğunluğu məhz bu təqvimdə əridəsiniz. Yoxsa səhhətinizdə ciddi fəsadlar baş qaldıra bilər. İş istiqamətində dönüş yaratmağınız vacibdir.

**QIZ** - Bu gün qeyri-adi hansısa hadisə baş verməyəcək. Yaxşı olar ki, dincələsiniz. İnsanlarla davranışlarınızda və fəaliyyətinizdə yeni nüanslar əmələ gələcək. Qonaqlıq da mümkündür.

**TƏRƏZİ** - Qarşınıza təzadlı bir gün çıxsa da, hadisələrin inkişafı boyu öz aktivliyinizi artırmalısınız. Reallığı qiymətləndirməyə çalışın. Saat 15-dən sonra qazanmaq ehtimalınız böyükdür.

**ƏQRƏB** - Nəhayət ki, sizin dövranınız da gəlib çatdı. Bütün Göy qübbəsi müdafiənizə qalxdığından qarşınıza qoyduğunuz hər bir ədalətli iş xoş sonluqla qurtaracaq. Səfərə çıxmağa dəyər.

**OXATAN** - Ulduzlar məsləhət görür ki, bu gün aldığınız bütün dəvətləri təxirə salıb dincəlməklə məşğul olasınız. Əks təqdirdə ailə üzvlərinizlə aranızda xoşagəlməzliklər baş qaldıra bilər.

**OĞLAQ** - Ümumi yorğunluğunuzu nəzərə alıb maraqlı guşələrdə istirahətə can atın. Məhz bu addımınız ümumi narahatlığınıza son qoya bilər. Nahardan sonra yeni xəbərlər eşidəcəksiniz.

**SUTÖKƏN** - Hər mənada düşərli ərəfədir. Vaxtilə buraxdığınız səhvlərdən, eləcə də sizə qarşı törədilən haqsızlıqlardan bir daha nəticə çıxarın. Günün uğurları sizdən yan keçməyəcək.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimdə bəzi problemlərlə baş-başa qalacağınızı bəyan edir. Amma təmkin göstərməklə sabit vəziyyət yaşaya bilərsiniz. Tələbkarlığınızı zorakı müstəviyə keçirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İştahı küsdürməyin 5 qızıl qaydası



Baharın gəlişi ilə qadınların qorxulu röyası olan artıq çəki problemi də maksimum həddə çatıb. Elə bu səbəbdən həkimlər iştahı kəsmənin 5 qızıl qaydasını müəyyənləşdiriblər. Bunlardan birincisi yeməyi bol-bol çeynəməkdir. Həkimlər müəyyənləşdirib ki, yeməyi uzun müddət çeynəyib udandan sonra beyin bədənə gedən qidaları qeydiyyata alır və dad alma özəlliyini də təmin edir. İkinci əsas şərt şübhəsiz ki, idmandır. Üçüncü şərt isə dəyişik dadlarla dad alma ehtiyacını doyuzdurmaqdır. Bu halda insan daha az miqdarda yeməklə kifayətlənə bilir. Tez-tez və az-az yemək də iştahın nəzarətdən çıxmasını əngəlləmənin ən asan yoludur. Və sonuncu şərt bol su içməkdir. Bu, insanın özünü tox hiss etməsinə səbəb olur.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.